

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Əzəli və əbədi torpaqlarımızda şəhər günləri




4

№ 135 (6818)

SƏS

2 avqust 2023-cü il.
Qiymәti 60 qәpik

## Qarabağ bölgəsinin yüksəlişinin təminatçısı - Qalib Lider




2

İLHAM ƏLİYEV: "Hər dəfə Qarabağa və Şərqi Zəngəzura gələndə ilk növbədə hiss etdiyim qürur hissidir"

# Erməni hərbi cinayətkarları üçün CİDDİ MESAJ!




3

### Qərb-Rusiya qlobal çəkişməsi



5

### Erməni deputat: "Paşinyana arzuolunmaz suallar verən jurnalistlər sıxışdırılır"



3

### AXCP-də xaos dərinləşir



9



### Vaqif tamam, sırada koçaryanlar, sarkisyanlardır!

7

### Gözüm yoldadır, qulağım səsdə...



15

# Qarabağ bölgəsinin yüksəlişinin təminatçısı - Qalib Lider

## İLHAM ƏLİYEV: "Hər dəfə Qarabağa və Şərqi Zəngəzura gələndə ilk növbədə hiss etdiyim qürur hissidir"

Bəli, Azərbaycanın şanlı tarixinə 44 günlük Vətən müharibəsi kimi düşən İkinci Qarabağ savaşı uğurla yekunlaşandan sonra xalqımız və dövlətimizin qarşısında yeni məsul vəzifə dayandı. Bu, işğaldan azad edilmiş tarixi və əzəli torpaqlarımızda quruculuq, bərpa işlərinin aparılması, yenidən Qarabağa həyatın qaytarılmasıdır. Artıq 44 günlük qələbəmizdən iki il yarım keçməsinə baxmayaraq bu istiqamətdə genişmiqyaslı işlər görülür, əcnəbi şirkətlərlə birgə yeni iqtisadi, quruculuq layihələri hazırlanır, hətta infrastrukturun bərpası ilə bağlı bir çox ilkin tədbirlər həyata keçirilir. Təbii ki, bütün bu mənzərələrin fonunda ölkə başçısının işğaldan azad olunmuş ərazilərə mütəmadi səfərlər etməsi quruculuq və bərpa işlərinin daha operativ və effektiv şəkildə davam etdirilməsini təmin edir.

Bəli, bu gün Qaltb Lider, Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara səfəri zamanı -”Qarabağda cənnət yaradacağıq” vədi sözü ilə əməlin bir olmasının göstəricisidir. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün sözləri, vədləri yerinə yetirib. Necə ki, ”Qarabağ Azərbaycandır və nida işarəsi” deyən dövlətimizin başçısı sözlərinə sadiq qalaraq Ermənistanın faşizm siyasətini məhv etdi, Qarabağı işğaldan azad etd, hazırda da ”Qarabağda cənnət yaradacağıq” vədini addım-addım yerinə yetirməkdədir. Bir sözlə, bu gün artıq Azərbaycan Respublikasının Prezidenti azad nəfəsalan torpaqlarımızı gəzir, Qarabağın cənnətə çevrilməsi üçün tapşırıqlarını verir, işlərə nəzarət edir, yeni layihələrin həyata keçirilməsi yollarını arayıb-axtarır və bu sahədə əməli tədbirlər görür. Azərbaycan xalqı da öz Prezidentinə inanır və güvənir və əmindir ki, qısa zaman çərçivəsində işğaldan azad olunmuş ərazilər bərpa ediləcək, böyük qayıdış başlayacaq və Azərbaycan dünyanın ən abad, gözəl, inkişaf etmiş dövlətləri sırasında olacaqdır.

Və bu gün azad edilmiş ərazilərdə reallaşan bərpa və yenidənqurma işləri həm də gələcəkdə Azərbaycan iqtisadiyyatının inkişafı üçün bir təməldir. Azərbaycan quruculuq işlərini davam etdirir. Bu istiqamətdə yeni layihələr, yeni planlar həyata keçirilir. Çünki Azərbaycan Prezidenti

### SÖZÜ İMZASI QƏDƏR QÜVVƏTLİ LİDER

”Mənim sözüm imzam qədər qüvvətlidir”-deyən Qalib Lider Qarabağımızı azad etdi və işğaldan azad olunmuş torpaqlara səfərləri, qısa bir zaman kəsiyində görülən uğurlu işlər və həyata keçirilən layihələr məhz Azərbaycan Prezidentinin sözünün və əməlinin vəhdətinin nümayişidir. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib. Çünki sözü imzası qədər qüvvətli olan liderdir! Artıq tariximizin qürur doğuran səhifələri yazılır. İndi Füzuli, Şuşa, Laçın, Kəlbəcər də, Ağdam da azaddır və digər işğal olunmuş rayonlar da. Hazırda işğaldan azad olunmuş torpaqlarımız bərpa olunur, yenidən qurulur, artıq Xarı bülbül boynunu bükməyib. Qarabağın Azərbaycana məxsusluğunu mədəniyyət müstəvisində bəyan edən ”Xarıbülbül” festivalı bərpa olunub. ”Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur” deyən Ümummilli Lider Heydər Əliyevin vəsiyyətinə uyğun hakimiyyətdə olduğu 20 il ərzində, hər gün və hər saat Şuşa başda olmaqla işğalda olan bütün əraziləri azad etmək uğrunda mübarizə aparan Prezident İlham Əliyev indi də onun bərpasına, quruculuğuna nail olmaqdadır. Bu gün

### ”ERMƏNİSTAN QƏBUL EDİB Kİ, QARABAĞ AZƏRBAYCANDIR VƏ ARTIQ SƏNƏDƏ İMZA ATMAQ MƏRHƏLƏSİDİR”

Azərbaycan Prezidenti İlham Əliyev ”4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda Şuşa Qlobal Media Forumunda








çıxışında bildirib ki, hazırda üç beynəlxalq tərəf var ki, bu prosesə (Ermənistanla Azərbaycan arasında normallaşma prosesinə - red.) dəstək olurlar - ABŞ, Rusiya və Avropa İttifaqı. Azərbaycan üç istiqamət üzrə tam səmimiyyətlə bu prosesə qatılıb və nəticəyönümlü yanaşma ortaya qoyur. Lakin indiyədək bir nəticə yoxdur.

”Düşünürəm ki, Ermənistan son bir addım atmalıdır. Onlar artıq müharibədən sonra bir sıra addımlar atıblar və mən deməzdim ki, bu addımlar könüllü olaraq atılıb. Son iki il yarım ərzində bir neçə məqam olub. Onlar Ermənistana birbaşa nümayiş etdirdi ki, onlar bizim ərazi bütövlüyümüzü tanımasalar, biz onların ərazi bütövlüyünü tanımayacağıq. Bunun onlar üçün nə məna daşıdığı kifayət qədər aydındır. Onlar artıq qəbul ediblər ki, Qarabağ Azərbaycandır, bunu açıq şəkildə bəyan ediblər və artıq sənədə imza atmaq mərhələsidir. Bu, sırf mühüm sonuncu məqamdır”, - deyə dövlətimizin başçısı diqqətə çatdırıb. Bəli, Azərbaycan Prezidenti İlham Əliyev ”4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında dediyi kimi

### ”İKİ İL YARIM ƏRZİNDƏ GÖRDÜYÜMÜZ İŞLƏR GÖSTƏRİR Kİ, BİZİM ÇOX CİDDİ TƏCRÜBƏMİZ VƏ PEŞƏKAR KADRLARIMIZ VAR”

Prezident İlham Əliyev ”4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında vurğulayıb ki, minatəmizləmə prosesi (Böyük Qayıdışa - red.) ən böyük əngəldir. Çünki bu iki il yarım ərzində gördüyümüz işlər təkcə onu göstərmir ki, bizim maliyyə imkanlarımız var. Onu göstərir ki, bizim çox ciddi təcrübəmiz və peşəkar kadrlarımız var.

Azərbaycan Prezidenti bildirib: ”Bu miqyasda layihələri iki il yarım ərzində həyata keçirmək, məncə, heç kimin ağlına gəlməzdi. Heç kim təsəvvür edə bilməzdi ki, cəmi iki il yarım ərzində bu qədər genişmiqyaslı işlər görüləcək, özü də böyük ərazidə. On min kvadratkilometri əhatə edən ərazidə durmadan, gecə-gündüz işlər gedir”.

Azərbaycan Prezidenti Cənubi Qafqazın inkişafının nədən asılı olduğunu da açıqlayıb: ”Bilirsiniz, əslində, regional inkişaf, - Cənubi Qafqazı nəzərdə tuturam, - əsasən Azərbaycanla Ermənistan arasında münasibətlərin yaxşılaşmasından asılıdır”.

”Hazırda bir sıra beynəlxalq təşkilatlar bizə qarşılıqlı qəbul olunacaq həlli tapmaqda yardım etməyə çalışırlar. Xoşbəxtikdən bu günədək gördüklərimiz odur ki, bütün beynəlxalq təşkilatlar başa düşür ki, bu həllər beynəlxalq hüquqa əsaslanmalıdır. İkinci Qarabağ müharibəsindən indiyədək təxminən üç il keçib. Biz getdikcə daha çox birbaşa bəyanatlar eşidirik ki, Qarabağ Azərbaycanın hissəsidir. İşğal dövründə belə bəyanatlar olsaydı, çox güman ki, İkinci Qarabağ müharibəsi başlamazdı”, - deyə dövlətimizin başçısı vurğulayıb.

Bəli, qələbəmizdən ötən bu iki il yarım müddətində görülən işlərin həcminin yüksək olması doğurdan da qürur doğurur. Qalib, qurucu liderimizin söylədiyi kimi

### ”HƏR DƏFƏ QARABAĞA VƏ ŞƏRQİ ZƏNGƏZURA GƏLƏNDƏ İLK NÖVBƏDƏ HİSS ETDİYİM QÜRUR HİSSİDİR”

”Hər dəfə Qarabağa və Şərqi Zəngəzura gələndə ilk növbədə hiss etdiyim qürur hissidir. Çünki xalqımla, ordumuzla, qəhrəmanlarımızla fəxr etməmək mümkün deyil”,- deyən dövlətimizin başçısı ”4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında Vətən müharibəsinin qəhrəman əsgər və zabitlərimizin, xalqımızın vətənpərvərliyini bir daha nümayiş etdirdiyini vurğulayan Azərbaycan Prezidenti deyib: ”Bütün bunlar xalqımızı bir daha hətta hər birimizə tanıtdı, Azərbaycan insanının necə yüksək mənəvi keyfiyyətlərə malik olmasını bir daha göstərdi, ilk növbədə, hər birimizə və bütün dünyaya”.

Göründüyü kimi, bu gün Qarabağ dirçəlir, bütün bölgələrdə quruculuq-bərpa işləri sürətlə gedir, azad edilmiş bütün ərazilərdə genişmiqyaslı abadlıq-quruculuq və bərpa işləri aparılır, şəhərlər, kəndlər yenidən qurulur. Bəli, bu gün Prezident İlham Əliyev əməli ilə bir daha göstərir ki, bu sözləri heç də söz xatirinə söyləməyib.

Prezident kimi Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirərək Qarabağın əvvəlki şöhrətini özünə qaytaracağını dünyaya nümayiş etdirir. Bu gün Qalib Lider, Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara səfəri zamanı -”Qarabağda cənnət yaradacağıq” vədi sözü ilə əməlin bir olmasının göstəricisidir. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün sözləri, vədləri yerinə yetirib. Necə ki, ”Qarabağ Azərbaycandır və nida işarəsi” deyən dövlətimizin başçısı sözlərinə sadiq qalaraq Ermənistanın faşizm siyasətini məhv etdi, Qarabağı işğaldan azad etdi, hazırda da ”Qarabağda cənnət yaradacağıq” vədini addım-addım yerinə yetirməkdədir. Bir sözlə, bu gün artıq Azərbaycan Respublikasının Prezidenti azad nəfəs alan torpaqlarımızı gəzir, Qarabağın cənnətə çevrilməsi üçün tapşırıqlarını verir, işlərə nəzarət edir, yeni layihələrin həyata keçirilməsi yollarını arayıb-axtarır və bu sahədə əməli tədbirlər görür. ”Zamanla bütün Qarabağ abadlaşacaq, buna isə heç kəs manеə ola bilməz”, -deyən Ali Baş Komandanımızın ”Dəmir yumruq” siyasəti altında Müzəffər Ordumuzun rəşadətli əsgər və zabitlərinin şücaəti ilə işğaldan azad edilən torpaqlarımız zamanla abadlaşacaq, cənnət məkana çevriləcək. Dövlət başçımızın dediyi kimi: ”Çünki bu torpaqların sahibləri bizik - Azərbaycan xalqıdır”.

Bəli, bu torpaqların sahibi Azərbaycan xalqı olduğu üçün də ədaləti bərpa edərək öz torpaqlarımıza sahib olduq. Dövlət başçımızın dediyi kimi: ”Ulu Öndərin xatirəsinə öz ehtiramımı və Azərbaycan xalqının ehtiramını buradan ifadə etməli, bir daha deməli idim ki, biz bu torpaqlara, doğma torpaqlarımıza əbədi qayıtmışıq və burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”.

**RƏFİQƏ KAMALQIZI**

# Erməni hərbi cinayətkarları üçün CİDDİ MESAJ!

Vəhşiliklərə imsa atanlar, Azərbaycan xalqına qarşı cinayət törədənlər, dinc sakinlərə qarşı qətliama imza atanlar, soyqırım siyasəti yürüdənlər, cinayətkarlar bunun cəzasını çəkməyəcəklərini düşünürdülərsə, böyük səhv edirdilər. Ona görə ki, heç bir qanunsuzluq, heç bir cinayət cəzasız qala bilməz. Cinayətkarlar bilməlidirlər ki, cinayət əməllərinə görə qanunla mühakimə olunmalıdırlar və həmin cinayətkarlar unudulmayıblar, onlar qanun qarşısında cavab verməli olacaqlar, necə ki, Vaqif Çerkezoviç Xaçaturyan indi qanun qarşısında cavab verir.

Birinci Qarabağ müharibəsi, Azərbaycan ərazilərinin uzunmüddətli işğalı zamanı erməni əsilli cinayətkarların törətdikləri əməllər, dinc əhalini qətlə yetiməleri, soyqırımlara imza atmaları, yerli sakinlərə olmazın işgəncələr verməleri, onları yurd-yuvalarından didərgin salmaları insanlıq dramı sayılır, cinayət xarakterli əməllərdir və başəriyyət üçün böyük faciə hesab olunur. Belə faciələri törədənlərin isə cəzasız qalması mümkün deyil və qanun qarşısında həmin o cinayətkarlar hesab verməli, cəzalarını almalıdırlar. Xaçaturyanın saxlanılması, qanun qarşısında cavab verməsi təsdiq edir ki, onun kimi digər erməni əsilli cinayətkarlar, xalqımıza qarşı cinayət əməlləri törədənlər da yaxalarını qurtara bilməyəcəklər.

Ötən əsrin sonlarında, daha dəqiq desək, Azərbaycan əraziləri uzunmüddətli işğal edildiyi zaman Xaçaturyanın timsalında cinayətlər törətmiş, azərbaycanlıları qətlə yetirmiş, bir çoxlarını şikəst etmiş erməni əsilli cinayətkarların cinayət əməlləri barədə, onların məhkəməsi üçün əsaslı sübut bazası Bakıda toplanılıb. Bunları təkzib etmək mümkün deyil. Yaxud da hansısa cinayətkar erməni bunun əskini söyləyə bilməz. Azərbaycan ərazilərində yaşamış Xaçaturyanın həmkəndlilərinə və qonşu kəndlərin sakinlərinə qarşı vəhşilikləri, qanunsuz əməlləri, cinayət hərəkətləri haqqında da kifayət qədər sübutlar var. İstintaqa məlumdur ki, 1991-ci il dekabrın 21-də Vaqif Xaçaturyan özü kimi vandallarla birlikdə azərbaycanlılara qarşı vəhşiliklər törətmiş, odlu silahlardan atəş açmaqla, eləcə də, piyadaların döyüş maşınları ilə Meşəli kəndinin sakinlərinə qarşı vəhşiliklər etmiş, 25 azərbaycanlını qətlə yetirmiş, 14 nəfəri şikəst etmiş, 358 kənd sakinini zorla öz yurd-yuvalarından didərgin salmışdır. Onun bütün bu əməlləri sözsüz ki, cinayət tərkibli olmaqla, insanlığa da sığışmayan vəhşilikdir və bunun da cəzasını çəkməlidir.

Bir zamanlar bu vəhşilikləri törədən Xaçaturyan və onun kimi vandallar, cinayətkarlar artıq buna görə məsuliyyətə cəlb olunacaqlarını dərk etməlidirlər. Ən azında Vaqif Xaçaturyanın saxlanılması, onun məhkəməyə cəlb olunması digərləri üçün də bir mesajdır. Bu mesaj ondan ibarətdir ki, heç bir cinayətkar yaxasını qurtara bilməyəcək və azərbaycanlılara qarşı törətdikləri cinayətlər cəzasız qalmayacaq. Bəli, artıq vaxt yetişib və qətlə yetirilən, işgəncələrə məruz qalan azərbaycanlıların 44 günlük müharibədə alınan qısasından sonra, indi də növbə həmin cinayətkarlarındır, hansıki onlar qanun qarşısında cavab verməlidirlər. Azərbaycan sərhədçiləri tərəfindən Xaçaturyanın saxlanılması bunu deməyə əsas verir. İndi erməni əsilli həmin o cinayətkarlar görürlər ki, Xaçaturyan cinayət əməllərinə görə necə mühakimə olunur. Görürlər ki, Azərbaycan dövlətinin onları cinayət əməllərinə görə mühakimə etmək, cəzalandırmaq iradəsi var və kimlərsə, hansısa qüvvələr, ermənipərəstlər bunun qarşısını ala bilmirlər.

Diqqətə çatdıraq ki, Meşəlidən və başqa kəndlərdən möcüzəvi şəkildə sağ qalmış hadisə şahidi olan insanlar, Xaçaturyanın əleyhinə olan ifadələr verirlər. Onun işi üzrə istintaq hələ də davam edir. Məlum olub ki, həmin o Xaçaturyan müharibə zamanı həm də Qarabağ separatçı dəstələrinin "komandiri" Samvel Babayanın sürücüsü imiş. Deməli, o, həm Babayanın özü, həm də əli dinc əhalinin qanına bulaşmış digər Qarabağ separatçıları haqqında çoxlu məlumatlara sahibdir və hələ onlar haqqında çox şeylər deyəcək. Çox güman ki, o özü kimi vəhşiliklərə imza atan digərləri haqqında da kifayət qədər dəlilləri istintaqa təqdim etməli olacaq. Yəni, hələ çox cinayət əməlləri barədə təfərrüatlar ortaya çıxacaq. Bu isə o deməkdir ki, digər cinayətkarlar barədə də istintaq məlumatları toplanılacaq.

Xaçaturyanın həbsindən sonra heç şübhəsiz ki, onunla əlbir olanların da yuxusu ərşə çəkilib. Azərbaycan xalqını məhv etməyi planlaşdıran, soyqırıma imza atanlar üçün də belə narahatlıq hissləri anlaşılandır. Məhz elə Samvel Babayanın özündə də təlaşı, həyəcanı, hətta qorxusu səbəbsiz deyil. O, qorxuya düşdüyü barədə artıq öz etiraflarını da edib. Erməni blogerlərindən birinə verdiyi müsahibəsində Babayan bunu açıq şəkildə ifadə edib. "Mən də o siyahıdayam", deyən Samvel Babayan görünür ki, eyni ilə Vaqif Xaçaturyan kimi saxlanılacağını və mühakimə olunacağını, qanun qarşısında cavab verməli olacağını gözü önünə alıb.

Heç bir ali təhsili olmayan, yalnız Xankəndidə orta məktəbi bitirən Babayan o zaman ciddi cəhdlə hakimiyyətə can atıb və özü kimi cinayətkarlara, cinayətkar rejimə özünü göstərmək üçün Ermənistan-Azərbaycan münaqişəsində öz vəhşiliyini belə demək mümkünsə, göstərmək imkanı qazanıb və cinayət əməllərinə əl atmaqla, azərbaycanlıları qətlə yetirməklə nəyə isə nail olmağa çalışıb. Nəticədə Samvel Babayan Qarabağda quldur dəstəsinin başçılarından birinə çevrilib. Babayan Şuşanın işğalında da iştirak edib. Bir sözlə, Azərbaycan hüquq-mühafizə orqanları tərəfindən onun saxlanılması üçün heç bir xüsusi əsas tələb olunmur və arqumentlər yetərincədir.

Məsələ burasındadır ki, Babayan özü də bilir ki, cinayət cəzasız qala bilməz. Xüsusən də, Xaçaturyanın saxlanılmasından və məhkəmə qarşısında cinayət əməllərinə görə cavab vermək məcburiyyətində qalmasından sonra buna tamamilə əmin olub. Bununla yanaşı, Babayan bağışlanmaq arzusu və niyyəti ilə son vaxtlar mediada "fırtınalı" fəaliyyətə başlayıb. O, Azərbaycan hökumətinin Ağdam yolu ilə ərzaq mallarının çatdırılması təklifini qəbul etmək çağırışı edib və hətta guya onları buna inandırmaq üçün tərəfdarları və ali separatçıların nümayəndələri ilə görüşüb də. Bu barədə Ermənistana məxsus "Hraparak" nəşri də yazıb. "İkitərəfli ticarətə həm Ağdamdan, həm də Qorusdən başlamaq lazımdır, bu, istəsək də, istəməsək də baş verəcək", deyə Babayan bildirib. O, kifayət qədər obyektiv şəkildə qeyd edib ki, dünya ictimaiyyəti üçün erməni tərəfinin bütün qondarma "etiraz aksiyaları" heç bir əhəmiyyət kəsb etmir və Azərbaycan istənilən halda qalib ölkədir və irəli də gedəcək. "Niyə də insanlara həqiqət söylənilməsin? Müharibəni uduzduqda, oyunun qaydalarını qəbul edib dirçəlməyə çalışmaq lazımdır", deyən Babayan deyəsən reallıqları görmək və qəbul etmək məcburiyyəti ilə üzləşdiyinin fərqindədir.

Dünya təcrübəsinə istinad edərək, diqqətə çatdıraq ki, hərbi əməliyyatlar davam edərkən törədilmiş cinayətlərdə təqsirli olan şəxslərin müharibələr başa çatdıqdan sonra müəyyən edilərək məsuliyyətə cəlb edilməsi prosesi başlayır. Bu baxımdan, elə Babayan da başa düşür ki, onun üçün ədalətli məhkəmədən yayınmaq mümkün olmayacaq. Məhkəmə qarşısında cavab verməli olan belə cinayətkarlar arasında Serj Sarkisyan, Robert Köçəryan, Arayik Arutyunyan, Arkadi Qukasyan, Seyran Ohanyan, Bako Saakyan kimiləri də var. Hətta siyahı bununla da bitmir və onların sayı daha çoxdur. Heç də onlar Vaqif Xaçaturyandan, yaxud da Samvel Babayandan az günahkar deyillər və onların da əlləri silahsız insanların, dinc sakinlərin, azərbaycanlıların qanına bulaşıb. Onların da qanun qarşısında cavab verəcəkləri gün uzaqda deyil. Özləri də yaxşı bilirlər ki, ədalət məhkəməsi onlar üçün də qurulacaq. Bilirlər ki, onların da adları Azərbaycana, Azərbaycan xalqına qarşı dəhşətli cinayətlər törətmiş şəxslərin siyahısına salınıb. Bilirlər ki, opnları da Xaçaturyanın taleyi gözləyir. Məhz Xaçaturyanın saxlanılması, barəsində məhkəmə işinin başlanılması ilə cinayətkarlara ciddi bir mesaj verildi. Bu, erməni hərbi cinayətkarları üçün, onların cəzadan yaxa qurtarmayacaqları barədə mesajdır.




***İnam Hacıyev***

## Erməni deputat: "Paşinyana arzuolunmaz suallar verən jurnalistlər sıxışdırılır"



"Nikol Paşinyana verilən arzuolunmaz suallara görə jurnalistlərə qarşı başladılan kampaniya, onlara qarşı təqib və şəxsi təhqirlər yolverilməzdir." Bu barədə Ermənistan parlamentinin İnsan Hüquqları və sosial məsələlər üzrə Daimi Komissiyasının keçmiş sədri, parlamentin "şərəfim var" fraksiyasının deputatı Tağui Tovmasyan öz Facebook səhifəsində yazıb.

Erməni deputat öz paylaşımında yazır ki, jurnalistlərin hüquqlarının müdafiəsi ilə məşğul olan bir sıra beynəlxalq təşkilatlar artıq bu problemlə bağlı narahatlıqlarını ifadə ediblər: "Keçmiş jurnalist Nikol Paşinyan keçmişdə vəzifəli şəxslərə onları utandıran və alçaldıcı suallar verirdi və buna hazır olmalı idi ki, xüsusilə Vətənini təhvil vermək üçün davam edən hərəkətlərindən sonra ona yalnız arzuolunmaz suallar veriləcək", - deyə Tağui Tovmasyan qeyd edib.

***Mətləb Salahov***

# Əzəli və əbədi torpaqlarımızda şəhər günləri

*Dövlət başçısının Sərəncamı ilə işğaldan azad edilmiş ərazilər üzrə şəhər günləri təsis edilib*




***Vətən müharibəsində 44 gün ərzində ordumuz böyük döyüş yolu keçdi. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin bildirdiyi kimi, İkinci Qarabağ müharibəsi də bizim gücümüzü göstərdi, müasirliyi göstərdi: "Çünki biz XXI əsrin müharibəsini aparmışıq və bu gün artıq sirr deyil ki, dünyanın aparıcı hərbi məktəblərində İkinci Qarabağ müharibəsindəki əməliyyatlarımız, bizim uğurlarımız, Qələbəmiz öyrənilir".***

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə sentyabrın 27-dən etibarən zəfər yürüşünə başlaması və qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi. 44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü göstərə bildi. Həmin qısa bir zaman çərçivəsində 5 şəhər, 4 qəsəbə, 286 kənd, çoxsaylı strateji yüksəkliklər işğaldan azad edildi. Noyabrın 8-də isə 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!", deyən Azərbaycan Prezident Cənab İlham Əliyevin bu qürürverici ifadələri tarixə həkk olundu. Cənab Prezident onu da qeyd edib ki, bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq!: "Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!".

Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciəti Azərbaycan tarixində yeni gün oldu. Noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə imzaladığı bəyanatla, 10 noyabr 2020-ci il tarixində münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu. "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır". Bu müracət xalqın tarixinə həkk olundu. Bu Qələbəni, Zəfəri bizlərə yaşadan isə Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, ölkə Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, Güclü Ordumuz, rəşadətli əsgər və zabitlərimiz oldu. Bildiyimiz kimi, Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair vasitəçilik prosesi 1992-ci ilin fevral ayında Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müqaviləsi ATƏT çərçivəsində başlamışdır. Münaqişənin həlli üçün hüquqi və siyasi addımlar beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) və digər beynəlxalq təşkilatların müvafiq sənəd və qərarlarına əsaslanırdı. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə Azərbaycan ərazilərinin işğalına cavab olaraq qəbul olunmuş qətnamələri Azərbaycan Respublikası və regiondakı digər dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq sərhədlərinin toxunulmazlığına hörmət olunmasını bir daha təsdiqləmiş oldu. BMT Təhlükəsizlik Şurası düşmənçilik aktlarının dərhal dayandırılmasını, işğalçı qoşunların Azərbaycan Respublikasının bütün işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etdi, qaçqın və köçkünlərin geri dönmələrini təmin etməklə, regionda iqtisadi, nəqliyyat və enerji əlaqələrinin bərpasına çağırdı. Bu qətnamələrin heç biri Ermənistan tərəfindən yerinə yetirilmədi. Azərbaycan tərəfi regionda davamlı sülh, təhlükəsizlik və əməkdaşlıq mühitinin bərqərar olmasına şərait yaradacaq Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli istiqamətində ardıcıl addımlar atdı. Bu münaqişənin nizamlanması ilə bağlı danışıqlar beynəlxalq hüquq və normalar və bu çərçivədə qəbul edilmiş sənəd və qərarlar əsasında davam etdirildi. İllərlə davam edən danışıqlara baxmayaraq, Ermənistan təcavüzkar siyasətindən əl çəkmədi. Azərbaycanın güclü ordusu və Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə torpaqlarımız işğaldan azad edildi. "Biz bu qələbəni həm peşəkarlıq, qəhrəmanlıq hesabına, eyni zamanda, milli ruh hesabına qazanmışıq. Biz haqlı idik, haqq-ədalət bizim tərəfimizdə idi. Bizim əsgər və zabitlərimiz hücuma keçəndə bir amalla yaşayırdı ki, öz doğma torpaqlarını işğalçılardan azad etsinlər. Noyabrın 10-da Ermənistan məcbur olub kapitulyasiya aktına imza atıb. Bu kapitulyasiya aktına görə, bir güllə atmadan Kəlbəcər, Laçın və Ağdam rayonları Azərbaycana qaytarıldı, Azərbaycan bayrağı orada qaldırıldı", - deyə Azərbaycan Prezidenti bildirib.

## "DÜŞMƏNİN BELİNİ QIRIRIQ, QIRACAĞIQ!"

44 gün davam edən Vətən müharibəsində Azərbaycan xalqı Ali Baş Komandanın ətrafında bir yumruq olaraq birləşdi və Azərbaycan ordusunun gücü, qətiyyəti, peşəkarlığı, vətənpərvərliyi nəticəsində təcavüzkar erməniləri torpaqlarımızdan təmizlədi. 30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan Ermənistan döyüş meydanında artıq uduzduğunu ilk günlərdən dərk etdi. "Hərbi əməliyyatların birinci gününün sonunda biz Kəlbəcər rayonunda, Murovdağda və Ağdərə istiqamətində strateji əhəmiyyətli yüksəklikləri, həmçinin 6 kəndi - Füzuli rayonunda 4 və Cəbrayıl rayonunda 2 kəndi azad etdik. Biz elə ilk gündə düşmənin müdafiə xəttini yarmağa nail olduq və bundan sonra bütün 44 gün ərzində yalnız irəli getdik", - deyə Cənab İlham Əliyev bildirmişdir.

2020-ci ilin sentyabrın 27-də başlanan Vətən müharibəsinin ilk günündən Azərbaycan xalqı qələbə xəbərlərini eşidir və tezliklə zəfərimizin qazanılacağı günün lap yaxında olduğuna inanırdı. Azərbaycan Prezidenti, Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu gücünü döyüş meydanında düşmənə göstərdi. Cənab Prezidentin həmin günlərdə xalqa müraciətlərində hər gün ordumuzun daha da irəliləyərək, yeni kənd, qəsəbə və şəhərlərin azad olunması ilə bağlı məlumatları bizi doğma torpaqlarımıza daha da yaxınlaşdırırdı. "Xalqımız döyüş meydanından, cəbhə bölgəsindən səbirsizliklə yeni xəbərlər gözləyir. Mən çox şadam və mən xoşbəxt adamam ki, bu şad xəbərləri Azərbaycan xalqına çatdırıram. Hər bir kəndin, hər bir şəhərin, hər bir strateji yüksəkliyin işğalçılardan azad edilməsi böyük peşəkarlıq, cəsarət, rəşadət, qəhrəmanlıq tələb edir", - deyə Prezident bildirib. Cənab Prezident "Biz öz missiyamızı yerinə yetiririk", - deyərək bildirib ki, düşmənə layiqli cavab veririk: "Düşməni cəzalandırırıq. Düşmən bizim qarşımızda acizdir. Düşmənin belini qırırıq, qıracağıq! Qarabağ bizimdir! Yaşasın Azərbaycan! Eşq olsun Azərbaycan xalqına!"

## "MƏRHƏLƏLİ YOLLARLA ŞƏHƏRLƏRİN BƏRPASI NÖVBƏTİ BEŞ İL ƏRZİNDƏ MÜMKÜN OLACAQ"

Öz torpaqlarında Vətən müharibəsinə qalxan Azərbaycanın gücünü təkcə məğlub, işğalçı Ermənistan deyil, bütün dünya gördü. Bu gün Böyük qayıdışımız uğurla yerinə yetirilir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, Qarabağın və Şərqi Zəngəzurun bərpası prosesi mərhələlərə bölünüb və Böyük Qayıdış Proqramı qəbul edilib. "Proqramın icrası üçün maliyyə resursları səfərbər edilib. Bu günə qədər infrastruktur və şəhərsalma məqsədləri üçün ilin sonuna qədər nəzərdə tutulan xərclər təqribən 7 milyard ABŞ dollarına bərabər olacaq", - deyən Cənab Prezident bunun ancaq başlanğıc olduğunu qeyd edib: "Mərhələlərə bölünən bu proqramın icrasının da nə qədər çəkəcəyini demək çətindir. Çünki birinci mərhələdə bizim əsas vəzifəmiz 8 şəhəri və 100 kəndi yenidən qurmaqdır. Artıq bir neçə yaşayış məntəqəsində insanlar məskunlaşıblar - Zəngilan rayonunun Ağalı kəndində, Tərtər rayonunun Talış kəndində və Laçın şəhərində. Ancaq bu proses tədricən gedir. İşğaldan əziyyət çəkən 1 milyon insan öz dədə-baba torpaqlarına qayıtmalıdır. Onu da bildirməliyəm, biz bərpa işlərinə start verməzdən əvvəl keçmiş məcburi köçkünlər arasında qeyri-rəsmi sorğu keçirdik ki, onlar öz dədə-baba torpaqlarına qayıtmaq fikrindədirlər, yoxsa yox. Sevindirici hal ondan ibarətdir ki, məcburi köçkünlərin mütləq əksəriyyəti müsbət cavab verib. Bu da təbii ki, görüləcək işin həcmini daha da böyüdür və hesab edirəm ki, mərhələli yollarla şəhərlərin bərpası növbəti beş il ərzində mümkün olacaq".30 illin həsrətinə, ağrı və acısına son qoyuldu. Ermənilərin işğalçılıq siyasəti nəticəsində dağıdılmış ərazilərimizdə ən müasir texnologiyalara əsaslanan quruculuq konsepsiyası əsasında bərpasına başlanılıb.

## "HƏR DƏFƏ BU İNKİŞAFI GÖRƏNDƏ MƏN ÖZÜMƏ DEYİRƏM, YƏQİN Kİ, XOŞBƏXTLİK, BAX, BUDUR"

Artıq işğaldan azad olunan ərazilərimizin əzəli sakinləri öz dədə-baba yurdlarına qayıdırlar. Zəngilan rayonu Ağalı kəndində canlı həyat yaşanılır, Tərtərin Talış kəndinə, eləcə də Laçına köç yola salındı. İnsanların doğma yerlərdən səsləri eşdilir. Həmin ərazilərin hər bir daşı, qayası, çayı bu səslər üçün qəribsəmişdi. Şəhər, kənd və qəsəbələr yenidən qurulur. "Hər dəfə yeni bir inkişaf layihəsini görəndə, yaxud da ki, təməl mərasimində iştirak edəndə sanki, necə deyərlər, damarıma qan vurulur, yəni, o qədər müsbət enerji verir ki, bu müsbət mənəvi enerji insanı fiziki cəhətdən də gücləndirir. Təkcə, bax, bu bölgənin havası deyil, - mən əminəm, siz də eyni hissləri keçirirsiniz, - özümüzü Şuşada yaxşı hiss edirik, yaxud da ki, Zəngilanda, Laçında. Təkcə havaya görə deyil, daxildən gələn xoşbəxtlikdir. Xoşbəxtlik nədir, bir çoxları özünə sual verir. Amma hər dəfə bu inkişafı görəndə mən özümə deyirəm, yəqin ki, xoşbəxtlik, bax, budur", - deyə Prezident bildirib. Cənab İlham Əliyev bildirib ki, 30-dan çox şəhər və kəndin Baş planı təsdiqlənib, bir çox kəndlərin təməli də qoyulub: "Həm Qarabağ, həm Şərqi Zəngəzur rayonları üzrə təxminən növbəti üç il ərzində 150 mindən çox insanı qaytaracağıq. İndi biz, necə deyərlər, işin ibtidai mərhələsindəyik. Çünki layihələndirmə, tender prosedurları çox vaxt aparır. Biz istəyirik ki, hər şey qayda ilə, qanunla olsun, tam şəffaf olsun və bu da vaxt aparır. Əminəm ki, keçmiş köçkünlər bunu anlayışla qarşılayırlar. Amma təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur".

## QƏLƏBƏ VƏ ZƏFƏR İLƏ YOĞRULMUŞ TARİXİMİZDƏN YAZIRIQ

Bəli, Ermənistanın hərbi təcavüzü nəticəsində 30 ilə yaxın işğal altında qalmış əzəli tarixi torpaqlarımız 44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olundu və şanlı Zəfərə aparan hər bir gün Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin canı, qanı bahasına Vətən müharibəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsi və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndi daxil olmaqla, ümumilikdə 300-dən çox yaşayış məntəqəsi, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər işğaldan azad edildi. Qarabağın tacı Şuşa şəhərinin azad edilməsi və Ermənistanın kapitulyasiya aktını imzalamağa məcbur olması ilə müharibə başa çatdı. Azərbaycanın döyüş meydanında qazandığı böyük qələbə siyasi müstəvidə də öz təsdiqini tapdı - Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarını işğaldan azad etmək məcburiyyətində qaldı və bununla da tarixi ədalət bərpa olundu.

Vətən müharibəsində əldə olunmuş tarixi qələbəni əbədiləşdirmək və işğaldan azad edilmiş şəhərlərin günlərini təsis etmək məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında"

Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb. Sərəncama əsasən, hər il aşağıdakı günlər işğaldan azad edilmiş ərazilərdəki şəhərlərin günləri kimi təntənəli şəkildə qeyd ediləcəkdir. 26 avqust - Laçın şəhəri günü, 4 oktyabr - Cəbrayıl şəhəri günü, 17 oktyabr - Füzuli şəhəri günü, 20 oktyabr - Zəngilan şəhəri günü, 25 oktyabr - Qubadlı şəhəri günü, 8 noyabr - Şuşa şəhəri günü, 20 noyabr - Ağdam şəhəri günü, 25 noyabr - Kəlbəcər şəhəri günü. Azərbaycan 44 günlük Vətən müharibəsində öz torpaqlarını işğaldan azad edərək, həmin ərazilərdə üçrəngli bayrağını dalğalandırdı. Hər bir azərbaycanlı üçün qəlb ağrıdan ərazilərimizin işğal tarixləri artıq tarixə qovuşdu. Uğurla sona çatan qələbəmiz işğal tariximizi Zəfərlə əvəzlədi. İşğal tarixlərimizdən illərlə acı-acı yazdıq və o tarixləri anaraq böyük sarsıntı, əzab keçirdik. Hər dəfə də qayıdacağımıza böyük ümid bəsləyirdik. 44 günlük Vətən müharibəsində əldə etdiymiz QƏLƏBƏ, ZƏFƏR artıq bizə qələbə ilə yoğrulmuş fikirləri yazmağa imkan verir. Tarixdə çox az xalqlara nəsib olan bir məqamı yaşadıq. Bu qüruru bizə, xalqımıza yaşadan Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevdir. Nə qədər qürurlandırıcı, fərəhvericidir ki, bu gün qalib xalq olaraq işğaldan azad olunan torpaqlarımızda həyata keçirilən abadlıq-quruculuq işlərindən yazırıq. 30 illik işğal dövründə Ermənistan tərəfindən şəhərlərimiz, kəndlərimiz, qəsəbələrimiz viran edilmiş, mədəni irsimizə böyük zərbə vurulmuş, tarixi-mədəni və dini abidələrimiz, məscidlərimiz dağıdılaraq vandalizmə məruz qalmışdır. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur hazırda yenidən qurulur, ərazilər minalardan təmizlənir, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır.

Sərəncamda qeyd olunduğu kimi, məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqrammı"nın icrasına başlanılmışdır. Artıq Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndinə və Laçın şəhərinə məcburi köçkünlərin qayıdışı təmin olunmuşdur və bu istiqamətdə işlər davam etdirilir.

***Zümrüd BAYRAMOVA***

# Qərb-Rusiya qlobal çəkişməsi



### Meydana Yaxın Şərq və Afrika daxil olur

Rusiya prezidenti Vladimir Putinin avqust ayında Türkiyəyə səfəri zamanı müzakirə etməyi planlaşdırdığı məsələlər artıq məlumdur. O, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşdə "Taxıl sazişi" və Ukraynadakı müharibənin gələcəyi müzakirə ediləcək. Həmçinin, Cənubi Qafqazda indiki durum, xüsusən də Qarabağ ətrafında cərəyan edən hadisələrin diqqət mərkəzində olacağı gözlənilir. İki ölkə liderləri həmçinin Moskva və Kiyev arasında ehtimal edilən sülh müqaviləsi barədə danışıqlar. Artıq səfərlə bağlı hazırlıqlara başlanılıb.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun Türkiyəyə rəsmi səfəri çərçivəsində Prezident Rəcəb Tayyib Ərdoğan və xarici işlər naziri Hakan Fidan, eləcə də digər rəsmi şəxslərlə görüşündə də regional məsələlərin həlli yol-



ları bir daha müzakirə olunub. Türkiyə lideri Zəngəzur dəhlizinin dərhal açılmasının və hərtərəfli sülh sazişinin tezliklə həyata keçirilməsinin vacibliyini diqqətə çatdırıb: "Zəngəzur dəhlizi dərhal açılmalı və hərtərəfli sülh sazişi tezliklə həyata keçirilməlidir". Xarici işlər naziri Hakan Fidan isə Laçın yolundakı son hadisələrlə bağlı Ermənistana mesaj ünvanlayıb: "Laçın yolu Azərbaycan torpağıdır. Azərbaycan nəyi lazım bilsə, onu da edə bilər. Azərbaycana qarşı ittihamlar əsassızdır".

### Putin NATO-ya: Biz toqquşmaya hazırıq

Rusiya-Afrika sammitində Vladimir Putin ABŞ-a meydan oxuyub. O bildirib ki, Moskva NATO ilə birbaşa toqquşma istəmir, lakin buna hazırdır. Bu arada, Rusiya ilə Amerika arasında artmaqda olan gərginlik təkcə Ukrayna münaqişəsi ilə bağlı olmadığı da ortaya çıxıb. Son həftələr Suriyada ABŞ və Rusiya orduları arasında tez-tez baş verən toqquşmalar narahatlıq doğurur. Putin isə Rusiya-Afrika sammitinin yekunları üzrə jurnalistlərin suallarını cavablandırarkən bildirib ki, Rusiya NATO ilə birbaşa hərbi toqquşma istəmir. Lakin Moskva buna hazırdır.

Son illərdə iqtisadi sanksiyalar, Suriyadakı vətəndaş müharibəsi, Ukraynadakı xüsusi əməliyyat kimi bir çox sahədə baş verən hadisələrə görə Rusiya ilə ABŞ arasında münasibətlər tam olaraq dayandırılmasa da, pozulmaq ərəfəsində-



dir. Moskva Vaşinqtonu NATO-nun Rusiya sərhədlərinə doğru genişlənməsində ittiham etsə də, ABŞ Ukraynaya silah tədarükünü davam etdirir. Son həftələr Suriya səmasında iki tərəfin hava qüvvələrinə məxsus təyyarələr arasında təhlükəli gərginlik qeydə alınıb. Afrika liderlərini ölkəsində qəbul edən Vladimir Putin hadisələrin qızğın fazaya keçməsi ehtimalını şərh edərək Amerikaya meydan oxuyub. Rusiya lideri onu da vurğulayıb ki, Afrika ölkələri Moskvadan kömək və ianə istəmirlər, əksinə, qarşılıqlı faydalı layihələr təklif edirlər.

### Vaşinqtona hücum

Son həftələr Suriyada ABŞ və Rusiya arasında hava məkanından istifadə ilə bağlı gərginlik artıb. ABŞ-ın müdafiə naziri Lloyd Ostin ötən gün Rusiya hərbi təyyarəsinin ABŞ pilotsuz uçan aparatına müdaxiləsinə toxunaraq, Rusiyanın Suriyadakı "məsuliyyətsiz davranışına" son qoymalı olduğunu bildirib. Eyni zamanda, Vladimir Putin Sankt-Peterburqda keçirilən Rusiya-Afrika sammitinin yekunları ilə bağlı keçirdiyi mətbuat konfransında ABŞ və Qərb ölkələrini təhdid etməyə davam edib. Jurnalistin Suriyada Rusiya ilə NATO arasında birbaşa toqquşma ehtimalının olub-olmaması ilə bağlı sualına Rusiya dövlətinin başçısı belə cavab verib: "Biz hər zaman istənilən ssenariyə hazırıq. Amma bunu heç kim istəmir. Həm də Rusiyanın təşəbbüsü ilə. Amerika tərəfi, biz vaxtilə bu münaqişələrin qarşısını almaq üçün xüsusi mexanizm yaratmışdıq, bizim müəyyən departamentlərin rəhbərləri bir-biri ilə birbaşa əlaqə saxlayır və istənilən böhranlı vəziyyətlə bağlı məsləhətləşmələr aparmaq imkanı əldə edirlər".

### Afrika paylama materialları tələb etmir

Rusiyanın Afrika ölkələrinə humanitar yardım göstərəcə-




yi, eləcə də müxtəlif sahələrdə dəstək göstərəcəyindən danışan Putin qeyd edib: "Afrikalı dostlarımız heç bir sovqat tələb etmirlər. Üstəlik, həm birinci sammitdə, həm də ikitərəfli formatda ikitərəfli formatda. zirvələr, və sonra çoxları bu barədə deyildiyi kimi, biz bir şey istəməyə gəlməmişik. Düzdür, "bizə bunu verin" kimi birbaşa xahiş olmadı. Hamı qarşılıqlı məqbul variant tapmağa çalışır. Tərəflər üçün maraqlı layihələr var". Rusiya lideri vurğulayıb ki, Afrika dövlətləri Moskva ilə əməkdaşlığı davam etdirmək istəyirlər, o cümlədən hərbi-texniki əməkdaşlıq sahəsində bu ölkələr kənardan heç bir təzyiqdən qorxmur və silah alırlar.

### Sülh siqnalı

Putin xatırladıb ki, Afrika ölkələri Ukraynadakı münaqişəyə son qoymaq üçün variantlar axtarırlar. Onun sözlərinə görə, Afrika sülh təşəbbüsü Çinin ideyaları ilə yanaşı sülh danışıqlarının əsasını təşkil edə bilər. Eyni zamanda, onun müddəaları, o cümlədən əsirlərin mübadiləsi və humanitar məsələlərin həlli artıq həyata keçirilir. Lakin atəşkəs təklifini həyata keçirmək çətindir, çünki Ukrayna hazırda əks-hücum edir.

### Taxıl sövdələşməsi Azovla bağlı deyil

Putin Rusiyanın taxıl sazişindən çıxmasının Türkiyənin Azov batalyon komandirlərinin Ukraynaya təhvil verməsi ilə heç bir əlaqəsi olmadığını qeyd edib. "Birinin digəri ilə heç bir əlaqəsi yoxdur", - prezident vurğulayıb. O əlavə edib ki, Rusiyanın Qara dəniz taxıl dəhlizi ilə bağlı sazişdən çıxmaq qərarı logistika, Rusiya gəmilərinin limanlara daxil olmasının mümkünsüzlüyü, vəsaitlərin köçürülməsi, sığorta və digər problemlərlə bağlıdır. Bu ayın əvvəlində Vladimir Zelenskinin İstanbula rəsmi səfəri zamanı Türkiyə tərəfi əsir mübadiləsi çərçivəsində Türkiyədə olan Azov batalyonunun bəzi komandirlərini Ukraynaya təhvil verib.

### Çərşənbə günü Ərdoğanla söhbət

Sankt-Peterburqda keçirilən sammitin yekunlarından sonra Vladimir Putin türkiyəli həmkarı ilə danışıqlar aparmaq planlarından da danışıb.

*Ardı Səh. 6*

ANALİTİK

# Qərb-Rusiya qlobal çəkişməsi

Əvvəli Səh.5

Putin qeyd edib ki, Ərdoğan onu Türkiyədəki seçkilərdən əvvəl də dəvət edib, lakin səfərin mövzusu ilə bağlı heç kimin spekulyasiya etməməsi üçün bu səfər baş tutmayıb. "Telefonla danışmaq istəyirdik, prezident Ərdoğan söhbət etməyi təklif etdi, amma o, mənim üçün çox əlverişli olmayan vaxtı təklif etdi. Mən bu gün təklif etdim - narahatdır, sabah təklif etdim - o da narahatdır. Yaxşı, razılaşdıq, danışdıq, məncə, çərşənbə günü yenidən danışacağıq və orada qərar verəcəyik", - deyə Putin bildirib.

## Qaz qovşağı elektron ticarət platforması olacaq

Rusiya prezidentinin sözlərinə görə, Türkiyədə qaz qovşağının yaradılması mövzusu gündəmdə qalır. Layihə böyük həcmdə qazın saxlanmasını deyil, elektron ticarət platformasının yaradılmasını nəzərdə tutur. "Açıq bildirmək istəyirəm ki, bura neft və ya neft anbarı deyil, qazdır. Bunu həm biz, həm də türk dostlarımız bilirik. Biz elektron ticarət platformasının yaradılmasından danışırıq. Biz nəhəng anbarlarda qaz saxlamaq fikrində deyilik. Bu, sadəcə olaraq belə bir elektron ticarət platformasının təşkili üçün əlverişli yerdir, çünki Türkiyə Avropa üçün tranzit ölkəyə çevrilib", - Putin izah edib.

## Səudiyyə Ərəbistanı Rusiyanın iştirakı olmadan...

Avqustun 5-də onlarla ölkənin nümayəndəsi Ukrayna üzrə sülh danışıqlarının necə başlayacağına qərar vermək üçün Səudiyyə Ərəbistanında toplanacaq. Qərb mətbuatının yazdığına görə, görüş Kiyevin təşəbbüsü və Qərbin dəstəyi ilə təşkil olunacaq və təkcə Ukraynanın müttəfiqləri deyil, Braziliya, Hindistan, Misir, İndoneziya və Cənubi Afrika kimi ölkələr də iştiraka dəvət olunub. Rusiya tədbirə dəvət olunmayıb. Təşkilatçıların planına görə, Ciddədəki görüş Ukrayna prezidenti Vladimir Zelenskinin tarixini açıqlamadan elan etdiyi "sülh sammiti"nin proloquna çevriləcək. Sammit Ukrayna böhranı və onun həlli yolları ilə bağlı Qərb və qeyri-Qərb fikirlərini bir araya gətirmək cəhdi kimi düşünülür. Cənubi Afrika Respublikasının Prezidenti Siril Ramafosanın Sankt-Peterburqda verdiyi bəyanatlara əsasən, dünyada münaqişənin tezliklə dayandırılması tələbi artır.

Hələ Ciddədə Ukrayna ilə bağlı görüşün keçirilməsi təşəbbüsündən əvvəl vəliəhd şahzadə Məhəmməd bin Salman dəfələrlə qeyd edib ki, Səudiyyə Ərəbistanı münaqişənin həlli üçün beynəlxalq səyləri dəstəkləyir və bu məsələdə vasitəçilik etməyə hazırdır. Hələ Ciddədə Ukrayna ilə bağlı görüşün keçirilməsi təşəbbüsündən əvvəl vəliəhd şahzadə Məhəmməd bin Salman dəfələrlə qeyd edib ki, Səudiyyə Ərəbistanı münaqişənin həlli üçün beynəlxalq səyləri dəstəkləyir və bu məsələdə vasitəçilik etməyə hazırdır.

Rusiya-Ukrayna münaqişəsində indi ilk baxışda bir-birini istisna edən iki tendensiya müşahidə olunur. Bir tərəfdən Kiyev əks hücumda uğur qazanmaq və 1991-ci il sərhədlərinə çatmaq niyyətində olduğunu bəyan edir. Digər tərəfdən, böhranın sülh yolu ilə tezliklə nizamlanmasının zəruriliyi barədə söhbətlər səngimir. Sülh təşəbbüsləri əsasən qeyri-Qərb dövlətlərindən gəlir və nə Moskvadan, nə də daha çox Kiyevdən tam dəstək görmür. Başqa bir şey budur ki, müəyyən mənada bunların hamısı gələcəkdə Ukraynanın ərazi bütövlüyünü nəzərdə tutur və buna görə də Vladimir Zelenskinin "sülh formulu"na uyğunlaşmanı istisna etmir.



Avqustun 5-6-da Səudiyyə Ərəbistanında dinc nizamlanmanın necə olması ilə bağlı Qərb və qeyri-Qərb ölkələrinin mövqelərini bir araya gətirmək cəhdi olacaq.

"The Wall Street Journal" yazır ki, Ukrayna böhranının həlli üçün Ciddədə danışıqlar aparılacaq. Tədbirin məqsədi 1991-ci il sərhədləri daxilində Rusiya qoşunlarının Ukrayna ərazisindən çıxarılmasını nəzərdə tutan Ukrayna yanaşmasına geniş beynəlxalq dəstəyə nail olmaq və Moskva ilə Kiyev arasında gələcək danışıqların əsaslarını müzakirə etməkdir. İclasda 30-a yaxın ölkənin nümayəndələrinin iştirakı gözlənilir. Milli təhlükəsizlik müşaviri Ceyk Sullivan, eləcə də Avropa İttifaqı və Böyük Britaniya, İndoneziya, Misir, Meksika, Zambiya, Hindistan, Braziliya, Cənubi Afrika və digər inkişaf etməkdə olan ölkələrin nümayəndələrinin təmsil olunacağı ehtimal edilir. Maraqlıdır ki, sammitdə ABŞ da iştirak etməyəcək. Son üç ölkə Rusiyanın BRİKS tərəfdaşlarıdır və onlar bir neçə həftə sonra Rusiya prezidenti Vladimir Putinin şəxsi iştirakı olmadan Yohannesburqda keçiriləcək klubun sammitinə toplaşacaqlar.

Qərb və Ukrayna siyasətçiləri ümid edirlər ki, Ər-Riyadın himayəsi altında müzakirələr Kiyevin planlarına görə, bu ilin sonuna qədər baş tutmalı olan "sülh sammiti"nin proloquna çevriləcək. İdeyaya əsasən, çoxlu sayda ölkə Rusiya Federasiyası ilə Ukrayna arasında potensial danışıqların əsasını təşkil edəcək münaqişəyə son qoymağın yolları barədə razılığa gələ bilər. Associated Press agentliyi Səudiyyə Ərəbistanında görüşün təşkili təşəbbüsünün Kiyevdən gəldiyinə aydınlıq gətirib. Bundan əlavə, mətbuatda yayılan məlumatlara görə, forumun təfərrüatları hələ də işlənir və tarixləri göstərici hesab etmək olar. Bazar günü axşam belə bir görüşün keçirilməsi niyyətini Ukrayna prezidentinin aparatının rəhbəri Andriy Yermak da təsdiqləyib. Səudiyyə Ərəbistanı vasitəçiliyi təsadüfən üzərinə götürməyib. Ər-Riyad bir tərəfdən Moskva ilə kifayət qədər sıx əlaqələrə malikdir, digər tərəfdən isə münaqişə ilə bağlı "neytral" mövqeyini dəfələrlə vurğulayır və hətta tərəflər arasında əsirlərin mübadiləsində vasitəçi kimi iştirak edib.

May ayında Vladimir Zelenskinin də çıxış etdiyi Ərəb Liqasının sammitində vəliəhd şahzadə Məhəmməd bin Salman qeyd edib ki, Səudiyyə Ərəbistanı münaqişənin həlli üçün beynəlxalq səyləri dəstəkləyir və bu məsələdə vasitəçilik etməyə hazırdır. Bundan əlavə, Qərb Səudiyyə Ərəbistanı vasitəsilə Ər-Riyadla kifayət qədər etibarlı münasibətlər quran Pekini özünə cəlb etməyə ümid edirdi. Bununla belə, Çin də qarşıdakı görüşdə iştirak etmir.

## Ciddəyə dəvət edilməyən Rusiya...

İyunun 24-də Kopenhagendə keçirilən, Qərb və qeyri-Qərb ölkələrinin diplomatlarının Ukrayna ilə bağlı qeyri-ictimai müzakirələrinin daxil olduğu əvvəlki analoji tədbirə Moskva da dəvət olunmayıb. Rusiyanın Danimarkadakı səfiri Vladimir Barbin o zaman demişdi ki, "Rusiyanın iştirakı




nəzərdə tutulmadığı halda sülh yolu ilə nizamlanmadan necə ciddi danışmaq olar". Rusiyanın xarici işlər naziri Sergey Lavrovun sözlərinə görə, söhbət Qərbin "qabaqcıl inkişaf etməkdə olan ölkələri, qlobal Cənub ölkələrini bu formulun dəstəkləmək üçün hər cür yolla şirnikləndirmək cəhdindən gedir.

Digər tərəfdən, Sankt-Peterburqda Rusiya-Afrika sammitində təmsil olunan və Vladimir Putinlə Afrikanın sülh yolu ilə həlli təşəbbüsünü müzakirə edən bəzi Afrika ölkələrindən Ciddəyə elçilər gələcək. Bu məsələ qismən Moskvanın sammitin qonaqlarının həvəslə qarşılamadığı taxıl sazişindən çıxması ilə bağlı idi. Belə ki, Cənubi Afrika Respublikasının Prezidenti Siril Ramafosa Qara dənizin dünya bazarlarına açıq olması lazım olduğunu bildirib. Onun fikrincə, Rusiya tərəfindən ən kasıb ölkələrə bir neçə on minlərlə ton taxılın pulsuz çatdırılması, əlbəttə ki, yaxşıdır, lakin Qara dəniz təşəbbüsünün həyata keçirilməsinin vacibliyini inkar etmir.

## Avropa Afrikanı Ukraynaya necə çəkir

"Davam edən münaqişə bizə Afrika ölkələrinə mənfi təsir edir... Bu münaqişə indi birbaşa bizə təsir edir... Ərzaq təhlükəsizliyi problemləri yaranır: bir çox ölkələrimizdə gübrə bahalaşıb, yaşayış minimumu da qalxıb və biz hesab edirik ki, maraqlar bəşəriyyət üçün, eləcə də Rusiya və Ukrayna xalqları arasında sülhün bərpasına cavabdehdir. Biz hesab edirik ki, bu münaqişə sülh yolu ilə həll edilməlidir", - deyə cənab Ramafosa bildirib.



Rusiya prezidenti Vladimir Putinin sözlərinə görə, Afrikanın nizamlanmaya bu cür yanaşması ÇXR-in fevralda təqdim etdiyi sülh planının müddəaları ilə rezonans doğurur. "Biz öz tərəfimizdən heç vaxt danışıqlardan imtina etməmişik, həmişə açıq şəkildə demişik ki, dialoqu davam etdirməyə hazırıq", - Rusiya Federasiyasının prezidenti bildirib. O xatırladıb ki, ötən il Ukrayna ilə razılaşma praktiki olaraq razılaşdırılıb, lakin Kiyev hakimiyyəti əvvəlki bütün razılaşmalardan imtina edib. "Buna görə də topun tamamilə onların tərəfində olduğuna inanıram", - deyə Vladimir Putin yekunlaşdırıb.

***V.VƏLİYEV***

***P.S. Məqalədə xarici mənbələrə istinadlar var.***



# Fabrisi Vielmini:
# ”Ermənistan artıq bütün kozırlarını itirib”



Vision&Global Center-in (vision-gt.eu) analitiki Fabrisi Vielmini (İtaliya) caliber.az-a müsahibəsində Azərbaycan-Ermənistan nizamlanması və sülh prosesinə təsir edən faktlar haqda maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Cənab Vielmini, sizcə, Avropa İttifaqının vasitəçiliyi ilə Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması ehtimalı necədir?***

- Avropa İttifaqının Ermənistan-Azərbaycan danışıqlarında həlledici rol oynaya biləcəyini düşünmürəm. Ümumiyyətlə, Aİ-nin, xüsusən də Mərkəzi Asiya və Qafqazdakı siyasəti London və Vaşinqtonun ardınca hərəkət edir və məhz bu iki paytaxtda Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması prosesinə müdaxilənin zəruriliyi barədə qərar qəbul edilib. 2020-ci il müharibəsinin nəticələri açıq şəkildə göstərdi ki, amerikalılar Qafqazdakı siyasi oyunun mötərizəsindən kənarda qalıblar. Və Ukraynada müharibənin başlaması ilə yenidən bu oyuna qayıtmaq imkanı yaranıb və indi, görünür, Vaşinqton və London Rusiyanı danışıqlardan sıxışdırmaqla müəyyən bonuslar qazanmaq üçün mümkün olan hər şeyi edirlər. Və dediyim kimi, Brüssel yalnız ABŞ-ın sifarişi ilə hərəkət edir.

Təəssüf ki, Aİ reallıqlarla hesablaşa bilməyən və özünəməxsus virtual aləmdə yaşayan, Avropa vətəndaşlarının maraqlarına cavab verən qərarların qəbul olunmadığı bir strukturdur.

***- Bəs amerikalılar Cənubi Qafqaza hansı ümidləri bağlayırlar?***

- Bu, onlar üçün bufer məkandır, yalnız ona görə maraqlıdır ki, bu regionlar- Cənubi Qafqaz və Mərkəzi Asiya beynəlxalq münasibətlərdə anqlo-sakson hökmranlığının əsas rəqiblərinin (Rusiya və Çinin- red.) arasındadır. Ona görə də onlar üçün iqtisadi üstünlüklər heç də fundamental əhəmiyyət kəsb etmir, baxmayaraq ki, Şevron və BP kimi aparıcı özəl şirkətlər Xəzərdə ehtiyatların işlənməsində iştirak edirlər.

Güman edə bilərəm ki, onlar böyük türkdilli blokun güclənməsinə töhfə verəcəklər ki, bu, Rusiya Federasiyası və Çinlə münaqişə üçün bəhanəyə çevrilsin.

***- Sizcə, danışıqlarda 3 əsas vasitəçi- Aİ, Rusiya və ABŞ arasında şiddətli rəqabət Ermənistan-Azərbaycan sülh gündəliyinin irəliləməsinə kömək edir, yoxsa əngəl törədir?***

- Müəyyən dərəcədə tərəqqiyə töhfə verə bilər, çünki Rusiya da Qafqazda mövqelərinin zəiflədiyini anlayır, ona görə də bu regionda mövqelərini qorumaq üçün Ermənistana təzyiq göstərməyə cəhd edə bilər. Ola bilsin, bu, həm də müsbət məqamdır və danışıqların müsbət nəticələnməsinə töhfə verə bilər.

***- Yaxın gələcəkdə Bakı ilə İrəvan arasında sülh sazişi əldə etmək şansı hələ də varmı?***

- Hər halda, hazırkı mərhələdə Bakı ilə İrəvan arasında danışıqlar prosesi intensivləşib. Ermənistan artıq bütün kozırlarını itirib və reallıqla- regionda qüvvələrin yeni sıralanması ilə barışmalıdır. Deməli, ortamüddətli perspektivdə tərəflərin bu mühüm addımın həyata keçirilməsinə tədricən yaxınlaşması tamamilə mümkündür.

***- İtaliya ilə Azərbaycan arasında əməkdaşlığın perspektivləri necədir?***

- Azərbaycanla İtaliya arasında ikitərəfli münasibətlərin perspektivləri kifayət qədər yaxşıdır. Bizim bir çox sahələrdəoxşar psixologiya və mentalitet üzərindən uzunmüddətli əməkdaşlığı üçün möhkəm iqtisadi potensialımız var. Ona görə də orta statistik italiyalı sahibkar Bakıda olarkən və ölkənizdə işləyərkən Azərbaycan cəmiyyətinin xüsusiyyətlərini daha yaxşı başa düşür və bu, əlbəttə ki, gələcəkdə sıx əməkdaşlıq üçün möhkəm zəmin yaradır.

*Tərcümə - Elçin Bayramlı*



MƏTLƏB
Metlebsalahov@mail.ru

# Vaqif tamam, sırada koçaryanlar, sarkisyanlardır!

***Əlləri Azərbaycan xalqının qanına batmış erməni qatilləri yavaş-yavaş ədalət məhkəməsinə ”təşrif buyururlar.” Yüzlərlə, minlərlə günahsız azərbaycanlıya qarşı terrorun, vəhşiliyin ən qəddar üsullarından istifadə etmiş erməni cəlladları üçün zamanın geri sayımı başlayıb. Xocalıda, Meşəlidə, Malıbəylidə, Əsgəranda, daha neçə-neçə ərazilərdə günahsız körpələrə, qadın və qocalara divan tutan cəlladlar nəhayət ki, haqq-ədalət divanında cavab verəcəklər. Artıq PROSES BAŞLAYIB!***

Diqqət edin: İyulun 21-də Azərbaycan Prezidenti İlham Əliyev ”4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında olduqca önəmli nüanslara toxunmuşdu. Prezident öz çıxışında deyirdi: ”Biz (İkinci Qarabağ müharibəsində - red.) təkcə Ermənistanı məğlub etmədik, biz erməni faşizminin belini qırdıq. Biz erməni xalqını bəd əməllərdən demək olar ki, xilas etdik. Bəlkə bu acı məğlubiyyət, İkinci Qarabağ müharibəsindəki acı məğlubiyyət onlara dərs olacaq və onlar oturub fikirləşəcəklər ki, bundan sonra bu bölgədə necə yaşasınlar, öz günahlarını etiraf edəcəklər, öz cinayətlərini etiraf edəcəklər, cinayətkarları məsuliyyətə cəlb edəcəklər. Artıq bu proses başlayıb. Ermənistanda əli Azərbaycan xalqının qanına batmış cəlladlar erməni hakimiyyəti tərəfindən cəzalandırılır. Bu, ədalətlidir və bunun davamı olmalıdır.”

Azərbaycan Prezidentinin bu çıxışı böyük proses üçün tarixi siqnal oldu. Budur, cəmi bir neçə gün bundan öncə Meşəli soyqırımı hadisələri ilə bağlı beynəlxalq axtarışda olan şəxslərdən biri Xaçaturyan Vaqif Çerkezoviç Laçın sərhəd-keçid məntəqəsində saxlanılıb. İstintaqla müəyyən edilib ki, qeyd olunan tarixdə 1955-ci il təvəllüdlü, Azərbaycan vətəndaşı, Əsgəran rayonunun Badara kəndində doğulmaqla həmin kənddə yaşamış, Xankəndi şəhər avtomobil nəqliyyat müəssisəsində sürücü işləmiş Xaçaturyan Vaqif Çerkezoviç erməni milliyyətindən olan digər şəxslərlə birgə Meşəli kəndində yaşamış azərbaycanlıları milli qrup kimi bütövlükdə məhv etmək məqsədilə müxtəlif silahlardan, o cümlədən, odlu silah və piyadaların döyüş maşınından istifadə etməklə həmin kəndə silahlı basqın edib azərbaycanlı milliyyətindən olan 25 nəfəri öldürüb, 14 nəfər şəxsə müxtəlif dərəcəli xəsarətlər yetirib, 358 nəfər azərbaycanlını isə beynəlxalq hüquq normaları və Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş əsaslar olmadan qanuni yaşadıqları yerlərdən didərgin salıb.

Aparılan cinayət işi üzrə kifayət qədər əsaslı şübhələr yarandığından Xaçaturyan Vaqif Çerkezoviçin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103 (soyqırımı) və 107-ci (əhalini deportasiya etmə və ya məcburi köçürmə) maddələrilə təqsirləndirilən şəxs qismində cəlb olunması barədə qərar qəbul edilib, lakin olduğu yer istintaqa məlum olmadığına görə barəsində 12 noyabr 2013-cü il tarixdə beynəlxalq axtarış elan edilməklə məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Keçirilmiş axtarış tədbirləri nəticəsində 29 iyul 2023-cü il tarixdə Vaqif Xaçaturyan Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi ilə müalicə almaq adı altında Ermənistan Respublikasına getmək istəyərkən Azərbaycanın Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları tərəfindən dövlət sərhədinin Laçın sərhəd-keçid məntəqəsində saxlanılıb.

Xaçaturyan Vaqif Çerkezoviç qabaqcadan əlbir olduğu şəxslərlə birgə cinayətkar hərəkətlərini davam etdirərək dövlətə və kənd sakinlərinə məxsus əmlakları məhv etmək və zədələməklə ümumilikdə 5 milyon 496 min 900 manat məbləğində maddi ziyan vurub. Vaqif Xaçaturyanın Bakı şəhərində tibb müəssisəsinə yerləşdirilməsi, zəruri tibbi yardımın göstərilməsi, həmçinin, BQXK-nin nümayəndələrinin ona baş çəkməsinə şəraitin yaradılması təmin ediləcək. Burası məlum.

Ən yaxın tarixə qısa nəzər yetirək. Azərbaycanda qətl və terror törətmiş erməni cəlladları zaman-zaman tapılaraq ədalət məhkəməsinə məhkum ediliblər.

Fikir verin, erməni faşistlərinin Azərbaycan ərazisindəki terror aktları hələ ötən əsrin 80-ci illərinin əvvəllərinə təsadüf edir. Belə ki, 8 sentyabr 1984-cü ildə Bakı şəhərində 106 saylı sərnişin avtobusu erməni terrorçusu Henrix Vartanov tərəfindən partladılıb. Hadisə zamanı iki uşaq anası olan Surxalizadə Fatma həlak olmuş, üç nəfər yaralanmışdır. Hadisə o vaxt SSRİ-nin xüsusi xidmət orqanları tərəfindən terror aktı kimi deyil, onunla Vartanovla müdiriyyət arasında olan narazılıq kimi qiymətləndirildi və hadisənin təşkilatçısı olan Henrix Vartanov psixi xəstə kimi qəbul edilərək həbsdən azad edilərək məcburi psixi müalicəyə göndərildi.

7 oktyabr 1989-cu ildə Xankəndi şəhərində azərbaycanlılar yaşayan Şuşa şəhərini Ağdam yolu ilə bağlayan Xəlfəliçay üzərindəki körpü partladılmışdır. Cinayəti törətmiş Abramyan Artur Artaşesoviç həbs olunmuş və 1992-ci il aprelin 29-da 15 il müddətinə azadlıqdan məhrum edilmişdir.

11 iyul 1990-cı ildə Tərtərdən Kəlbəcərə sərnişin aparan avtobusu partladılmış və xalq təsərrüfatı malları daşıyan maşın karvanına qarşı ermənilər tərəfindən terror aksiyası keçirilmişdir. Nəticədə 1 qadın, 7 kişi qətlə yetirilib, 23 nəfər isə ağır yaralanıb (cinayət işi 44/33013). İstintaq zamanı müəyyən edilib ki, terror aksiyasını Xankəndi şəhər sakinləri Napaleon ləqəbli Ayriyan Arkadi Abramoviç və Babayan Samvel Andronikoviç törədiblər. Onlar 1990-cı il dekabrın 15-də Əsgəran rayonunun Cəmilli və Kosalar kəndi arasında 3 nəfər azərbaycanlı kəndlisini qətlə yetiriblər. Hər 2 cinayətkar həbs olunub, 1992-ci il iyunun 19-da ölüm hökmünə məhkum ediliblər. S.Babayan daha sonra 1992-ci ilin iyulunda azərbaycanlı girov və əsirlərlə dəyişdirilib.

Bundan başqa, 9 yanvar 1991-ci ildə Laçın-Şuşa yolunda ”Molodyoj Azerbaycana” qəzetinin müxbiri Salatın Əsgərova, batalyon komandiri polkovnik leytenant O.Larionov, Laçın rayonunun hərbi komendaturasının qərargah rəisi mayor İ.İvanov və çavuş İ.Qoyekin olduğu avtomobilə qarşı terror aktı törədilib. Hadisə nəticəsində avtomobildə olan 4 nəfər qətlə yetirilib. Terrorçu qrupun üzvləri A.Mkrtçyan, Q.Petrosyan, A.Manqasaryan və Q.Arustamyan cinayət məsuliyyətinə cəlb olunublar.

Və daha neçə-neçə törədilən terror aktları, tökülən günahsız qanlar, öldürülən günahsız insanlar... Bu işin ən önəmli tərəfi isə odur ki, artıq erməni qatillərinin beynəlxalq hüquq çərçivəsində ədalət məhkəməsinə cəlb olunması üçün tarixi proses başlayıb. Sırada, robert koçaryanlar, serj sarkisyanlar, zori balayanlardır. Əli günahsız körpələrin, qadın və qocaların qanına batmış erməni cəlladları üçün böyük divan qurulur. Haqq nazilər, amma üzülməz!



# O, ƏMİN İDİ O, ZAMİN İDİ

(POEMA)

Ulu Öndər Heydər Əlirza oğlu Əliyevin ölməz xatirəsinə ithaf edirəm.

ONUN qəlbini
obamıza, elimizə
sonsuz bir məhəbbət duyğusu
doldurmuşdu.
ONUN bütün varlığı
fövqəlbəşər şölələrlə
nurlanmışdı.
Qüdrətli olduğu qədər də
nəcib, rəhimliydi O.
Sarsılmaz səhhət və güc rəhniydi O.
Dinclik, rahatlıq nədir? - unutmuşdu.
Qəti bir yol tutmuşdu.
Vətən sevgisi, xalq işi
ONUN bütün varlığını
silkələyirdi.
- Dünya bizim üçün
çox ədalətsiz,
çox ağır qurulmuşdur! - deyirdi.
Bir gün ərzində
kürreyi-ərzi dolaşırdı,
okeanlar keçirdi,
dağlar aşırdı,
dünyanın bir qütbündən
o biri qütbünə gedirdi.
Dünyanın
vicdanına müraciət edirdi. -
Dünyanı haqqa gətirmək,
dünyanı haqqın, ədalətin
ixtiyarına vermək
istəyirdi.
Ağlı bağlayan zəncirləri
çoxdan qırılmışdı.
Qorxunun, paxıllığın,
xəyanətin, kinin
əsarətindən çıxmışdı.
İnsanı əzib məhv edən,



Valeh Sefiyev

çürüdən
hər cür qüvvənin
fövqündə durmuşdu O.
Etiqad və təsəlli gəzmirdi;
əbədi həqiqəti axtarırdı,
əbədi həqiqətin odu ilə,
ürəyini alışdırmışdı O.
Günəş kimi nurlu,
cəsarətli, ölməz fikrin,-
yalnız fikrin gücü ilə
silahlanmışdı O.
Bütün ruhu
rəşadət ilə dolmuşdu;
ruhunu ağır, çətin
mübarizələr üçün hazırlamışdı O.
Bütün fəlakətlərə
sinə gərən,
tab gətirən
mərdanəlik qazanmışdı O.
Tarixə rövnəq verən
möhkəm addımları ilə
tapdalayırdı yalanı,
şəri, böhtanı.
**ONU**
məsud, ləkəsiz gələcəyə doğru
səfərə çıxaran
ruhundan gələn işıq idi, nur idi.
O, haqqın nə olduğunu bilirdi,
haqq üçün özünü əsirgəmirdi.
Haqq da arxa durmuşdu ONA.
Çətində, darda
çatmışdı ONUN qeyrəti,
qoymamışdı
murdar əllər toxunsun ruhuna -
tükənsin,
ayaqlar altında
məhv olub getsin
həyat ehtirası,
həyat qüvvəti.
Yüksək amalların tərəfdarı,
fitnəkar ağıldan törəyən
bəd niyyətlərin düşməni idi;
məsləkindən dönməmişdi.
Ordan, yüksəldiyi o mərtəbədən-

O ALI-BƏŞƏRI
duyğular zirvəsindən
bir pillə də enməmişdi.
Çiyinlərində
bel bağladığı,
arxalandığı xalqın
yükünü daşıyırdı O.
Yeni doğulan düşüncələrin
beşiyi başında
qayğı, məhəbbət dolu
qaynar bir həyat yaşayırdı O.
Yeni həyat üçün
lazım olduğunu aydın görürdü,
möhkəm dərk edirdi.
Sözü şax üzə deyirdi;
məqsədsizliyi
qətiyyətlə rədd edirdi.
Haqq, ədalət naminə
düz ölümün üstünə gedirdi.
Yer üzünün
mübarək dəmir adamı, -
əvəzsiz, tək, nadir adamı,-
təlatümlü ümman idi O.
Üzü böyük vədlər verən
arzularla parlayan,
ruhumuza doğma bir insan idi O.
Öz müqəddəs dünyasında
axtarırdı bəxtiyarlığı.
Sınmamışdı,
sarsılmamışdı varlığı
adamların dönüklüyündən,
çürüklüyündən.
Öz vacib işləri ilə məşğul idi;
dünya heyrətə gəlirdi
ONUN qəlbində oyanan
qürurun böyüklüyündən.
O öz qəlbini,
mənəvi ucalığını, azadlığını
heç bir rahatlığa, dincliyə,
heç bir naz-nemətə, sərvətə,
dedi-qoduya, qeybətə
satmamışdı, dəyişməmişdi.
ONUN vicdanına
nöqtə boyda da ləkə düşməmişdi.
Nəfsin, tamahın üzünə
min yerdən kilidlənmiş
ürəyinin qapısını
haqqın üzünə taybatay açmışdı O.
Və haqqın toxumunu
çox insanın ürəyinə saçmışdı O.
Qollarımıza qüvvət,
ürəyimizə işıq gətirdi O.
Pak əməllərimizi alqışladı,
Düşüncələrimizə qanad verdi O.
Qovuşduq
ömrümüzün qəhrəmanlıq baharına.
Qovuşduq
dünyanın azad, xoşbəxt xalqlarına.
İnsanlığın şöhrəti
**O BÖYÜK QÜDRƏTƏ** güvənib

inamla, cəsarətlə
addımladıq sabahımıza.
Bir əbədi QURTULUŞA yol başladıq,
yetişməyə can atdıq
ONUN zəka səltənətindən
nur alan İNTİBAHIMIZA.
O, arxa durdu,
sarsılmaz dayaq oldu bizə.
Heç kəs cürət edib
xor baxa bilmədi
halallıq şərəfimizə.
...Havamıza,
torpağımıza, suyumuza
zülmətdən qara ruhlar enmişdi.
Həyatımız xəyanətdən, paxıllıqdan,
yaltaqlıqdan zəhərlənmişdi.
Heç kəsin gözündə
həyat atəşi alovlanmırdı.
Ürəklər donmuşdu,
baxışlar buz kimi soyuq idi.
İnsanın insana
insan kimi baxmağa
ehtiyacı yox idi.
Bizi kor bilib,
gözümüzü çuxur bilib
ovuc-ovuc
gözümüzə kül üfürürdülər.
Bütün varlığımıza, mənliyimizə,
düz ürəyimizə tüpürürdülər.
Unudulmuşdu insanlıq andı;
İnsan öz insanlığını danırdı.
İnsan mətbəx qurdu kimi
tapdalanırdı.
O zaman: hər şey insana
işgəncə, əzab verirdi.
Ümidsizliyin vahiməsi içində
çırpınan yorğun qəlblərdə
nifrət göyərirdi.
Dağılmışdı haqqın məhvəri.
Belə naməhrəmlik görməmişdi
dünya yaranandan bəri.
Hər yandan kəsilmişdi ümidimiz.
ONA pənah gətirdik,
ONA üz tutduq biz.
ONDAN nicat istədik.
**QİBLƏMİZ OLDU ONUN BÖYÜK ADI!**
O da bizi darda qoymadı;
"QALAN ÖMRÜMÜ DƏ
XALQIMA BAĞIŞLAYIRAM!", - dedi
çatdı harayımıza, dadımıza.
Bizə həqiqətlər bəxş etdi,
qaytardı bizi
halal ocağımıza, odumuza.
Bizi
yarımçıq şüurların,
xəstə ruhların
bəlasından xilas etdi,
qurtardı O.
Məlhəm qoydu yaralı ürəyimizə;
Ağrıdan ulayan məmləkətimizə

şəfa verdi O.
**TANRI TÖHFƏSİ -**
İnsanlıq ruhunun
əlçatmaz,
kamil və əbədi ZİRVƏSİ
O KİŞİNİN mövcudluğu, varlığı
bir əfsanə oldu taleyimizdə.
Haqq, ədalət, səadət yolçusu
O KİŞİNİN mərd əlini sıxanda
ürəyimiz dağa döndü,
aslan gücü duyduq biləyimizdə -
Qarabasmalardan qurtardıq biz də.
Heç olmamışdı
qəlbimiz belə coşqun
şükran duyğusu ilə dolsun.
**ÖLKƏ ATASI İDİ, -**
Hamını halallığa dəvət edirdi.
İnsanlıq şərəfini
dünya malına dəyişənlərdən,
Məsləksiz, əqidəsiz yaşayıb
sifətdən sifətə düşənlərdən
ONUN zəhləsi gedirdi.
Vətənə xəyanəti bağışlamırdı;
Rüşvətxorluğun, yaltaqlığın
kökünü kəsirdi,
tifağını dağıdırdı.
**DÜNYANIN ƏN BÖYÜK İNSANI İDİ;**
İnsanlığın
İnsanlıq dünyasının
keşiyində dururdu.
Başını qəzəblə qaçırırdı
zamanın, dövranın tumarlarından.
Qan yerinə od-atəş axırdı
ONUN damarlarından.
Hər kəlməsi, hər sözü də
od kimi, atəş kimi
gəzib dolaşırdı qanları.
Oyatmağa çalışırdı
yatmış vicdanları.
Soyumağa qoymurdu
mübarizə yolundan -
yapışıb qolundan
səadətə doğru çəkirdi insanları.
Hər bir vətən övladının
məyusluqdan, qorxudan-
acı və işgəncəli hər cür duyğudan
xilas olub
ağıl və iradə qanadlarında
uçmasını istəyirdi,
Hamının əzizi, doğması idi;
bütün ölkə: "HEYDƏR - XALQ!
XALQ - HEYDƏR!" deyirdi.
Şərəfli işdən,
ləyaqətdən zövq alırdı,
Qədir-qiymətdən zövq alırdı.
Könül aydınlığını xoşlayırdı O.
Təravətli,
xoş arzularla yaşayırdı O.
Fikrində sabahın
aydın üfüqləri,
Üzündə gələcəyin
parlaq şəfəqləri.
Dünyanın dolaşığında,
zamanın qarışığında
əksini gördü göy qurşağında-
**O, ƏMİN İDİ,**
**O, ZAMİN İDİ:**
Bütün ehtişamıyla GƏLƏCƏK
AĞIL, KAMAL LƏYAQƏT işığında
insanlığın üzünə güləcək.

# AXCP-də xaos dərinləşir

## Əli Kərimlinin yanlış siyasəti partiyanın yenidən parçalanmasına gətirib çıxaracaq

Dağıdıcı müxalifətin cəmiyyət tərəfindən qəbul edilməməsi onların yanlış və səhv siyasət aparmaları ilə bağlıdır. Buna baxmayaraq, müxaliflər öz məkrli və çirkin siyasətlərindən əl çəkmirlər. Bu da onların xarici ağalarından geri dönüş edilməməsi ilə bağlı sərt tələb qoymalarından irəli gəlir. Müxalifət xarici maraqlı dairələrin tələbi qarşısında boyunlarını tükdən də incə hesab edərək, verilən göstərişlərə uyğun fəaliyyət yolu tuturlar. Gah milli dəyərlərimizi təhqir edir, gah da xalqın mənafeyinə zidd açıqlamalar verirlər. Bütün bunlar onu təsdiq edir ki, Əli Kərimli, Gültəkin Hacıbəyli, Tofiq Yaqublu, Cəmil Həsənli və digərləri üçün inkişaf edən Azərbaycan, dövlətçiliyə sədaqətli olan qalib xalq görmək ağır dərddir. Onlar ölkəmizin uğurlarını görəndə qəm-qüssəyə qərq olurlar, yasa batırlar. Qarabağın işğaldan azad edilməsi Fransa, fars-molla rejimi və Ermənistan qədər dağıdıcı müxalifət üçün də böyük faciədir. Çünki onlar Qarabağın işğalda qalmasını və qaçqın, köçkünlərin ağır, çətin şəraitdə yurd həsrəti ilə yaşamalarını arzu edirdilər. Qısası, "Milli Şura" və AXCP birbaşa xarici qaranlıq dairələrin Azərbaycandakı təzyiq qrupları funksiyasını yerinə yetirirlər.



### Əli Kərimliyə qarşı narazı cəbhəçilərin sayı artmaqdadır

Hazırkı reallıq ondan ibarətdir ki, torpaqlarımızın işğaldan azad edilməsindən sonra AXCP kimi dağıdıcıyönümlü partiyalar daxilində rəhbərliyin yanlış siyasətinə etiraz edənlərin sayı artmaqdadır. Daha doğrusu, partiya üzvləri Ə.Kərimlinin AXCP-ni özünün şəxsi firmasına çevirməsini qəbul etmək istəmirlər. Bu səbəbdən də onun avtoritar idarəetməsinə etirazlarını bildirirlər. Bəzi hallarda Ə.Kərimlinin istefasını da tələb edirlər. Xüsusilə də, bu kimi çağırışlar AXCP-nin şou xarakterli qurultayından sonra daha da güclənib. Partiya üzvləri Ə.Kərimlinin alternativi olmadan sədrliyə namizədliyinin irəli sürülməsi və istəyinə nail olmasını boş qapıya vurulan top kimi dəyərləndirirlər. Ə.Kərimlinin "qurultay" oyununun ardınca partiyanın Gəncə şəhər təşkilatının sədrinin partiya pullarını səlamçilikdə istifadə etməsi kimi hallar AXCP-dəki xaosun dərinləşməsinə təkan verib. Artıq narazı cəbhəçilər etirazlarının AXCP rəhbərliyi tərəfindən qulaqardına vurulduğunu gördüklərindən sosial şəbəkələrə üz tuturlar. Məhz bu səbəbdən də sosial şəbəkələrdə AXCP-də baş verən anormal hadisələrin müzakirəsi cəbhəçilər tərəfindən aparılır.

### Nurəddin Məmmədlinin "facebook" hesabını da Əli Kərimlinin tapşırığı əsasında İlham Hüseynlinin rəhbərlik etdiyi trol dəstəsi idarə edir

Sosial şəbəkələrdə yazışmalara istinadən demək olar ki, bir sıra "cəbhəçi"lər öz hesablarında yazdıqları statuslarda Ə.Kərimlinin nə üçün qurultaydan sonra partiyanın Ali Məclisinin yığıncağını tələm-tələsik keçirmək və yenidən Nurəddin Məmmədlini sədr seçmək istədiyini təftiş edirlər. Bildirilir ki, bu, AXCP sədrinin avtoritarizmi gücləndirmək üçün növbəti oyunudur. Çünki N.Məmmədli "dilsiz-ağılsız" və "dişsiz" biri olduğuna görə Ə.Kərimliyə sözsüz itaət edir. Hətta deyilənlərə görə, Nurəddin Məmmədlinin "facebook" hesabını da Əli Kərimlinin tapşırığı əsasında İlham Hüseynlinin rəhbərlik etdiyi trol dəstəsi idarə edir. Şübhəsiz, partiya daxilində bu vəziyyətlə barışmayanlar da var. Bir qisim cəbhəçi sosial şəbəkə hesablarında etdikləri paylaşımlarda Tofiq Yaqublunun kürəkəni Seymur Həzinin AXCP Ali Məclisinin sədri seçilməsi tərəfdarı olduqlarını vurğulayırlar. Bu isə partiya daxilində çatların genişlənməsinə, üstəlik, Tofiq Yaqublu ilə Ə.Kərimlinin kəllə-kəlləyə gəlməsinə təkan verir. Aqressivləşən və sağa-sola hücum edən Ə.Kərimlinin hərəkətləri isə partiya üzvləri tərəfindən normal qarşılanmır. Partiyadan uzaqlaşanlar dərhal onun əleyhinə statuslar yazaraq ifşa və rüsvay edirlər. Bütün bunlara əsaslanaraq demək olar ki, AXCP yaxın vaxtlarda parçalanma mərhələsini məhvolma mərhələsi ilə əvəzləyəcək. Yəni, bu partiya ya sıradan çıxacaq, ya da başqa partiyaların tərkibində əriyəcək.

*İ.ƏLİYEV*

## Azerconnect şirkətinin dəstəyilə beynəlxalq yay məktəbi təşkil olunub

Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının təşkilatçılığı və Azerconnect şirkətinin dəstəyi ilə 12-16 yaş arası məktəbli və yeniyetmələr üçün "Cyber Summer School - 2023" (CSS) beynəlxalq yay məktəbi təşkil olunub.



Artıq üçüncü ildir ki, baş tutan yay məktəbi ərzində yerli və xarici mütəxəssislər tərəfindən iştirakçılar üçün kibertəhlükəsizlik sahəsində təlimlər, texnoloji turlar, habelə bu sahədə bilik yarışı keçirilib. Bu ilin 24-29 iyul tarixlərində baş tutmuş "Cyber Summer School - 2023" yay məktəbinə Azərbaycan, İsrail və Türkiyə ilə yanaşı Türk Dövlətləri Təşkilatına üzv olan Qazaxıstan, Özbəkistan, Qırğızıstandan olan ümumilikdə 125 iştirakçı cəlb edilib. Yay məktəbinin bağlanış tədbirində bilik yarışının qalibi olan komandalar Azerconnect və digər təşkilatlar tərəfindən mükafatlandırılıb, iştirakçılara sertifikatlar təqdim olunub.

2021-ci ildən etibarən ənənəvi olaraq hər il həyata keçirilən layihənin əsas məqsədi tərəfdaş ölkələrdən olan yay məktəbi iştirakçıları arasında dostluq münasibətlərinin inkişaf etdirilməsi, kibertəhlükəsizlik üzrə bilik, bacarıq və xüsusi həvəsə malik yeniyetmələrin müəyyənləşdirilərək ölkə daxilində və xaricində bir araya gətirilməsi, habelə kibertəhlükəsizlik sahəsində ixtisaslaşmış mütəxəssis kimi yetişdirilməsinə dəstək verməkdir. Azerconnect şirkəti NEQSOL Holding beynəlxalq şirkətlər qrupuna daxildir



Vəli Vəliyev

# Pis ssenari və dalan

### Ermənistan iki dəfə büdrəyib, üçüncü dəfə...

Dünyanın nizam-tərəzisi pozulub, ədalət də artıq topal deyil, ölüm ayağındadır, haqq da o qədər nazilib ki, üzülsəydi canımız qurtarardı. İri ölkələr yalana möhtac kimi başlarını girələyirlər, ya da yalanın tam ortasındadırlar, əksər hallarda özlərini yalanlarla ovudurlar. Bunu başımıza gələnlərdən çıxış edərək deyirəm, haqlı ikən haqsız duruma düşdüyümüz üçün söyləyirəm. 28 il Sovetin şinelindən çıxan bir ölkə qonşusunun 20 faiz ərazisini işğal edir, varını-dövlətini yağmalayır, insanlarını yurd-yuvasından didərgin salır, çatdığını öldürür, çata bilmədiyinin yurd həsrəti ilə qovrulmasına qəhqəhə çəkir, ələ salır, dünyanın bütün qanunlarına tüpürür və ona "gözün üstə qaşın var" deyən olmur. BMT kimi "eşşək boyda" beynəlxalq təşkilat 4 qətnamə çıxarır, ya da qəbul edir və işğalçının qulağını burmur, üstəlik də dünyanın 3 supergücünün həmsədrlik etdiyi Minsk qrupu adlı marionet qurum 26 il Ermənistanı "yola gətirmək" əvəzinə səmərəsiz səfərlərlə özünü və hamımızı aldadırsa buna başqa nə ad verməliyik. İşə bir bax, dünya gücləri ədalətin açarını itirib, ədalət axtarırlar. Yəqin ki, "molla-dəli" məsələsini xatırladınız...

Ermənilər şikayət edirlər ki, Avropa Birliyi Gürcüstanda məhkəməsi hələ də davam edən keçmiş prezident Mixeil Saakaşvilinin sağlıq durumundan narahat olduqları üçün Tiflisə ultimatum göndəriblər, amma "Artsax xalqı humanitar fəlakətlə, genosidlə üz-üzədir", lakin buna diqqət ayırmırlar, bəyanat vermirlər. Elə ermənilərin bu "düstur"undan istifadə edərək deyə bilərik, Ermənistan Azərbaycanın guya şərti sərhədi keçərək onun torpaqlarını "işğal" etdiyini ta Brüsselə qədər çatdırıblar. Qərbin, Avropanın bəzi institutları da ermənu zurnasına züy tutaraq Azərbaycana qarşı hələlik dişsiz bəyanatlar verirlər. Amma ən önəmli bir məsələni unudurlar, məqsəd həqiqətənmi işğalçını üzə çıxarmaqdır? Yaxud, Qərb bizdən işğalçımı düzəltməyə çalışır? Bəs, Ermənistanın vuran əli, danışan dili sayılan silahlı qüvvələrinin Azərbaycan torpaqlarında 28 il at oynatmalarına nə ad verək? Bəlkə onlar heç buralarda olmayıblar, ya da hamıdan gizlin gəliblər Qarabağa, Şərqi Zəngəzura? Əgər belə deyilsə, Avropa, Rusiya, Amerika niyə anlaqsız danışır? 28 illik işğalı görməzdən gələnlərin Azərbaycanı ittiham etməsi absurddur, rəzillikdir. Əgər axırıncı olmasaydılar Ermənistana görə öz imiclərini bada verməzdilər. Belə olmasaydı, dünyanın düzəni də pozulmazdı. BMT və onun Təhlükəsizlik Şurasının çəkisi itməzdi, nüfuzuna ləkə düşməzdi.

İri ölçülü dövlətlərin sayəsində Ermənistanın Azərbaycana qarşı yeni oyunları başlayıb. Sonuncu "TIR şousu"ndan sonra "terrorçunu müdafiə" aksiyası da sülhün yaxında olmadığını üzə çıxarır.

Ermənistanla Azərbaycan arasında alovlanan yeni söz savaşı İrəvanla Bakı arasında böyük sülh müqaviləsinin bağlanmasına nəyin mane olduğu barədə düşünməyə vadar edir. Əsas manea ikinci Qarabağ müharibəsində qalib gələn Azərbaycanın Qarabağda suveren hüquqlarını bərpa etməsi məsələsidir. Şübhə yoxdur ki, bu gün bu prosesi dayandırmaq onsuz da mümkün deyil və inteqrasiya hələ də davam edəcək. Birincisi, Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, üstəlik, Qarabağı Azərbaycanın sərhədləri daxilində tanıyıb. Yəni, İrəvan bütün Qarabağın Azərbaycana məxsusluğundan şübhələnmir. Ötən həftə Nikol Paşinyan daha da irəli gedərək deyib ki, Qarabağ məsələsi heç də erməni məsələsi deyil. "Ermənistan Qarabağ xalqının taleyini həll edə bilməz. Onlar özləri danışıqlarda tərəf olmalıdırlar".

İkincisi, dünya dövlətləri, o cümlədən Rusiya Federasiyası Qarabağın Azərbaycana məxsusluğu ilə bağlı mübahisə etmir. Ümumi formada Bakının Qarabağın inteqrasiyası planına üç bənd daxildir: yerli hakimiyyət orqanlarının buraxılması, qondarma müdafiə ordusunun buraxılması və erməni əhalisinin burada qalacaq hissəsinin Azərbaycan vətəndaşlığını qəbul etməsi. Lakin problem ondadır ki, separatçılar üçün Azərbaycanın suverenliyi altına keçmək perspektivi nəinki qəbuledilməzdir, həm də ölüm-dirim məsələsidir.

Öz növbəsində separatçılar Ermənistan rəhbərliyini ittiham edir, Rusiyanın yanaşmasını da qəbul etmirlər. Bu dramın tənqidi nə ola bilər və dram faciəyə çevriləcəkmi? Prezident Əliyev ikinci Qarabağ müharibəsində qələbədən sonra tarixin qaliblər tərəfindən yazılması mövqeyindən çıxış edir və hər halda Qarabağ üzərində tam nəzarəti bərqərar edəcəyini açıq şəkildə bildirir. Lakin Azərbaycanın tərkibində yaşamaqdan imtina edənlər pis ssenarini də ehtiyatda saxlayırlar. Belə ki, Azərbaycan hakimiyyəti məcburi ssenariyə əl atsa, separatçılar özlərinin qanını töküb suçu Azərbaycanın üzərinə ata və Bakını etnik təmizləmədə ittiham edə bilərlər. Təbii ki, bu ssenari gizlində qalsaydı təhlükəsi yarana bilərdi, amma ermənilərin bütün planları artıq ortadadırdır, ermənilər üçün qarşıda dalan yaxınlaşır.



# Tarixin dönəmlərində Azərbaycan kinematoqrafiyası

XIX əsrin ən maraqlı kəşflərindən olan kino bəşəriyyətin diqqət mərkəzində oldu. Hərəkətli təsvirlərdən istifadə etməklə hekayələri, fikirləri, hissləri, gözəlliyi və müxtəlif düşüncələri insanlara çatdıran bu vizual sənətdə həyatın üzü, tarixi öz əksini tapmış oldu. Necə ki, bir əsrdən artıq yol gələn Azərbaycan kinosunda tarixi keçmişimiz, adət-ənənələrimiz, milli dəyərlərimiz ekranlaşdırıldı. Dədə Qorqudumuz, Koroğlumuz, Babəkimiz, Mehdi Hüseynzadəmiz, eləcə də neftimiz, inkişafımız, tarixi şəxsiyyətlərimiz kinematoqrafiyanın yaddaşına köçdü. Ötən illərin hər daşından, izindən bizləri xəbərdar edir Azərbaycan kinosu. Bizləri həm güldürən, həm düşündürən, həm də mənəvi sarsıntılar yaşatdıran, kimliyimizi - qəhrəmanlığımızı, igidliyimizi, mübarizliyimizi, vətənpərvərliyimizi təqdim edən Azərbaycan kinosu. Azərbaycan milli mədəniyyətinin, kino sənətinin inkişafı haqqında bu gün böyük sevgi və vüqarla söz açdıqda, unutmamalıyıq ki, bu sənətin təməlini qoyan, onu zaman-zaman inkişaf etdirən, təkmilləşdirən, formalaşdıran böyük qəlbli insanlar, ziyalılar təbəqəsi olmuşdur. Neçə-neçə onilliklərini məhz sənətin inkişafına həsr edən insanlar dünyaların dəyişsələr də, sənət tarixində möhtəşəm abidələrini ucaltmış, özlərinə əbədiyaşarlığı əmək və istedadları ilə qazanmışlar. Həyata gəlişləri ilə böyük əsərlərin müəllifinə çevrilən, illərin qanadında ömür yolunu kino sənətinin inkişafına həsr edən insanlar, zaman adlı məfhumun hər dövründə xalqın sevilən, seçilən övladı kimi yaddaşlarda qalırlar. Onların yaradıcılıq yolunda əldə etdikləri uğurların hər biri sənətin inkişafına yönəldilmişdir. Azərbaycan xalqının belə istedadlı, sayseçmə övladları kifayət qədər olmuşdur. Onların əməyi və istedadı sayəsində ideal şəxsləri, ali dəyərləri görməyimizlə yanaşı, cəmiyyətin neqativ halları ilə də üz-üzə gəlirik. Ziddiyyətli dünyanın ziddiyyət kəsb edən məqamları ilə tanış oluruq. Neçə əsrlik tariximiz vərəqlənir, bu filmlərdə. O filmlərlə böyümüşük, ən yüksək dəyərlərin əxz olunmasında bizlərə təsirsiz ötüşməyib və hər bir filmdən bir iz salınıb dünyamıza. Artıq neçə illərdir ki, bu filmləri ərsəyə gətirən kinematoqrafçıların peşə bayramını qeyd edirik. Azərbaycanın müstəqillik əldə etməsi ilə kino işçilərinin də peşə bayramı 27 avqust tarixində deyil, məhz 2 avqust tarixdə qeyd olunmağa başlanıldı. Ümummilli Lider Heydər Əliyevin Sərəncamı əsasında, 2 Avqust Milli Kino Günü elan olundu.

Azərbaycan kinosunun yaranma tarixinə nəzər salsaq görərik ki, Azərbaycan kino sənətinin tarixi 1898-ci il avqustun 2-dən başlayır. İlk filmlər fotoqraf və nasir A.M.Mişon tərəfindən çəkilmiş xronika süjetləri "Bibiheybətdə neft fontanı yanğını", "Balaxanıda neft fontanı", "Şəhər bağında xalq gəzintisi", "Qafqaz rəqsi" və bir bədii kinosüjetdən - "İlişdin"dən ibarətdir. 1915-ci ildə Qafqazda Pirone qardaşlarının açdığı səhmdar cəmiyyətləri tərəfindən Bakı, Tiflis və İrəvan şəhərlərində prokat kontorları yaradılmışdır. 1915-ci ildə adıçəkilən cəmiyyət neft sənayeçilərinin pulu ilə M.Musabəyovun "Neft və milyonlar səltənətində" romanı əsasında eyniadlı ilk Azərbaycan bədii filminin çəkilişinə başladı. Təbiət mənzərələri Bakıda və ətraf kəndlərdə, pavilyonla bağlı səhnələr isə, Tiflisdə çəkilirdi. Filmdə Lütfəli bəy rolunu H.Ərəblinski oynamışdır. Tarixi materiallar əsasında deyə bilərik ki, 1923-cü ildə Azərbaycan Foto-Kino İdarəsi (AFKİ) təsis olundu. AFKİ ayrı-ayrı sahibkarların foto, kinoteatr və prokat kontorların milliləşdirilməsi və birləşdirilməsi tədbirlərini həyata keçirirdi. AFKİ sonralar "Azdövlətkino" (1926-1930), "Azərkino" (1930-1933), "Azfilm" (1933), "Azdövlətsənayesi" (1934), "Azərfilm" (1935-1940), "Bakı kinostudiyası" (1941-1959) kimi adlar daşımışdır, 1961-ci ildən isə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası adlanır. XX əsrin 20-ci illərində Bakıda yerli operatorlar və xarici kino şirkətlərinin nümayəndələri tərəfindən şəhərin həyatından və neft mədənlərindən bəhs edən kinoxronikalar və sənədli filmlər çəkilirdi. 20-ci illərdə Azərbaycan kinosunda tarixi-sənədli filmlərlə yanaşı, tamaşaçıları gənc respublikanın təsərrüfat və mədəni həyatındakı nailiyyətləri ilə tanış edən "Azərbaycan ekranı" kinojurnalı buraxılmağa başlandı.



## MÜHARİBƏ VƏ AZƏRBAYCAN KİNOSU

Azərbaycan kinosu inkişaf dövrünü yaşayırdı. Zamanın tələbi əsas meyar idi. İkinci Dünya müharibəsi illərində qəhrəman döyüşçülər Kamal Qasımov və Bəxtiyar Kərimova həsr olunmuş "Vətən oğlu" və "Bəxtiyar" kinonovellaları, M.F.Axundovun həyat və fəaliyyətinə dair "Səbuhi" vahid süjet xətti ilə bağlı üç kinonovelladan ibarət "Bir ailə", müharibə dövründə dənizçilərin göstərdikləri igidliklərə həsr olunmuş "Sualtı qayıq T-9" bədii filmləri çəkildi. Cəsur partizan Mehdi Hüseynzadəyə həsr edilmiş "Uzaq sahillərdə" filmi isə Azərbaycanın, eləcə də, keçmiş sovet kinosunun nailiyyətlərindəndir. İkinci Dünya müharibəsi illərində Azərbaycan sənədli kinosunun bir qrup rejissorları və operatorları cəbhə xəttinə gedərək, əsgərlərin qəhrəmanlığını lentə çəkirdilər. Həmin materiallar xüsusi buraxılışlar kimi əsgərlərə göstərilmək üçün müxtəlif cəbhələrə göndərildi. Bu dövrdə Azərbaycan xalqının arxa cəbhədəki əməyini əks etdirən kinojurnallar və kinooçerklər də yaradıldı. "Vətən uğrunda", "Qayğı", "Məktuba cavab", "Qardaş köməyi" və s. 1944-cü ildə "Bakı kinostudiyası" Moskva Sənədli Filmlər Studiyası ilə birgə Xəzər dənizçilərinin qəhrəmanlığından bəhs edən "Xəzərilər" tammetrajlı sənədli filmini çəkdi. 1945-ci ildə Azərbaycanda sovet hakimiyyətinin qurulmasının 25 illiyi ilə əlaqədar rejissor H.Seyidzadə "Əbədi odlar diyarı" tammetrajlı sənədli filmini yaratdı. Beləliklə, bir-birin ardınca Azərbaycan həyatını əks etdirən filmlər istehsal olunmağa başlanıldı.

## YENİ VƏ QAYNAR DÖVR

Sovet dövründə yaşadığımız illərə nəzər salsaq görərik ki, 1970-80-ci illərdə Dahi Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə kino sənətinin inkişafına, həmin sahədə çalışanlara qayğı və hörmətlə yanaşan Ulu Öndər Heydər Əliyev Azərbaycan Prezidenti seçildiyi gündən respublikanın kino sənəti xadimlərindən məhəbbətini əsirgəmədi. XX əsrin 60-70-ci illəri kinematoqrafiyaya gənclərin böyük bir qrupunun gəlməsi ilə əlamətdar olmuşdur. Onların orta və yaşlı nəslə mənsub xadimlərlə əməkdaşlığı Azərbaycan kinosunun peşəkar səviyyəsinin yüksəlməsinə, milli özünəməxsusluq, ideya dərinliyi ilə fərqlənən filmlərin meydana gəlməsinə səbəb olmuşdur. Məsələn, "Bir cənub şəhərində" filminin mərkəzində yeniliklə köhnəliyin mübarizəsi və insanın köhnəlmiş adətlərin əsarətindən xilas olması prosesi durur. Bu dövrün filmlərində mənəvi-əxlaqi problemlər, müasir həyata müxtəlif baxışlar, insan xarakterlərinin təhlili, gənc nəslin formalaşması və s. mövzular başlıca yer tutur: "Uşaqlığın son gecəsi", "Gün keçdi", "Baş müsahibə", "Var olun, qızlar", "Həyat bizi sınayır", "Xoşbəxtlik qayğıları" və s. filmləri göstərmək olar. 1970-ci ildən "Azərbaycanfilm" kinostudiyasında "Mozalan" satirik kinojurnalının istehsalına başlanılmışdır. Kinojurnalda cəmiyyətin antipodları, gündəlik həyatda və təsərrüfatda rast gəlinən qüsur və nöqsanlar tənqid atəşinə tutulur.

Təbii ki, yeni baxışlar, yeni quruluş cəmiyyət qarşısında keyfiyyətcə yeni məqsəd və vəzifələr qoymuşdur. Azərbaycanda milli ideologiyanın və cəmiyyətin yeni inkişaf modellərinin qurulması və digər bu kimi sosial problemlər humanitar elmlərin öncül tədqiqat istiqamətlərinə çevrilmişdir. 1990-cı ildən sonra Azərbaycan kinosunda çəkilən filmlərin sayı əvvəlki illərə nisbətən azalmışdır.

## FİLMLƏRDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV OBRAZI

Müstəqillik illərində çəkilən filmlər sırasında maraq doğuran Azərbaycanın Ümummilli Liderinin geniş və hərtərəfli fəaliyyətindən bəhs edən film N.Səfərovun ssenarisi əsasında operator O.Şıxəliyevin çəkdiyi "Hamıya nümunə olan ömür yolu" filmidir. Bu əsərdə Ulu Öndər Heydər Əliyevin 1990-cı ildən sonrakı fəaliyyəti öz yığcam ekran ifadəsini tapmışdır. Ssenarist və kinorejissor Vaqif Mustafayevin Ümummilli Lider Heydər Əliyevin fəaliyyətindən bəhs edən silsilə filmləri diqqəti cəlb edir. Xüsusən, onun çəkdiyi "Həqiqət anı" filmi tamaşaçıların marağına səbəb olmuşdur. Bundan başqa, Vaqif Mustafayev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş 12 serialı "Heydər Əliyev" filminin 9-nu çəkib. Onlardan "Əsl məhəbbət haqqında" film böyük uğur qazanıb. Bu film Moskvada keçirilən 4-cü Avrasiya Teleforumunda əsas mükafata və xüsusi mükafata layiq görülüb. "Bir həsədin tarixi" filmi 2002-ci ildə Yekaterinburqda keçirilən sənədli filmlər festivalında əsas mükafatlardan birini, Moskvada keçirilən 5-ci Avrasiya Teleforumunda "Qran-Pri" mükafatına layiq görülüb. Bu filmlər müxtəlif ölkələrdə böyük uğurla nümayiş etdirilib.

Onu da qeyd edək ki, Bakıda məşhur dünya neft şirkətləri ilə bağlanmış saziş Vaqif Mustafayevin "Əsrin sazişi" filmində öz əksini tapmışdır.

## QARABAĞ HƏQİQƏTLƏRİ VƏ AZƏRBAYCAN KİNOSU

1980-ci illərin sonlarından başlayaraq bədnam qonşumuz Ermənistan tərəfindən Azərbaycanın qədim ərazisi olan Qarabağ bölgəsində elan edilməmiş müharibə başladı, ermənilər çirkin məqsədlərini həyata keçirərək dədə-baba torpaqlarımızda etnik təmizləmə siyasəti apardı. Separatçı hərəkatın apardığı müharibə, hərbi cinayətlər nəticəsində Azərbaycanın qədim yurdu olan Qarabağda yaşayan bir milyona yaxın soydaşımız doğma ocağından, doğulub boya-başa çatdığı torpaqlarından didərgin salındı, iyirmi faiz torpaqlarımız qəddar düşmən tərəfindən işğal edildi. Azərbaycana məxsus olan qədim ərazilərin erməni quldur dəstələri tərəfindən yağmalanması nəticəsində minlərlə soydaşımız həlak oldu, əsir götürüldü, itkin düşdü. Respublikanın əməkdar incəsənət xadimi, istedadlı kinorejissor Yavər Rzayevin 1998-ci ildə quruluş verdiyi faciə janrlı "Sarı gəlin" filmində Qarabağ uğrunda gedən müharibədə dinc əhalinin məruz qaldığı mənəvi sarsıntılar əksini tapmış oldu.

Son illərin hadisələri də ekran həllini tapmış və beynəlxalq müsabiqələrdə yer almışdır. "Arxada qalmış gələcək", "Atılmamış güllələr", "Biz qayıdacağıq", "Canavar balası, "Dolu", "Girov", "Xoca", "Xüsusi təyinatlı İbad", "Qarabağa gəzinti", "Laçın dəhlizi", "Vandalizm", "Mübarizə" və s. filmlərdə xalqımızın mübarizəsi, Qarabağ uğrunda gedən döyüşlər öz əksin tapmışdır. "Müharibə uşaqları" və "Biz qayıdacağıq" kinolentləri Xocalı soyqırımına həsr olunub. "Dolu", "Mübarizlik zirvəsi" və bu kimi digər filmlərin gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında rolu əvəzolunmazdır. "Nabat" filmi Qarabağ həqiqətlərinin dünyaya çatdırılması baxımından dəyərli ekran əsəridir. Əlbəttə ki, bu gün Vətən müharibəsini əks etdirən filmlər ekranlaşlırılmalıdır. Neçə-neçə filmin mövzusu olan müharibənin odalovu, şəhidlərimizin, vətən oğullarının qəhrəmanlığı kinofilmlərdə yaşamalıdır. Hər biri bir tarix, hər biri bir dastan olan həyat həqiqətləri ekran əsərlərinə gətirilməlidir. Necə ki, tarixi həqiqətləri bu gün tarixi filmlərdə görürük. Azərbaycan kinematoqrafçıları bundan sonra da xalqımızın tarixi, keçdiyi yol ilə bağlı hadisələri ekranlaşdırıb, həyat həqiqətlərini kinosevərlərə təqdim edəcəklər.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Dəli yığnağı



**Dəli, deyərəm, birdən ağlınıza Koroğlunun dəliləri gələr ha. Axı Koroğlu rəhmətlik igidlərinə dəli deyirdi. Nəbadə, nəbadə, nəbadə, ürəyinizə igid sözü əsla gəlməsin.**

Mən bu dəli sözünün o biri mənasından- hansı ki AXCP, "Müsavat" və "Milli şura"nın cəm olduğu dəli yığnağından bəhs edirəm. Həm də dəli yığnağı deyirəm ey, ay qardaş, bunlar ki, bir yerə yığılıb yığnaq oldular, ağız deyəni qulaq eşitmir ki...

Heç özləri bilir ki, nə danışırlar, danışdıqlarını məndən soruşursunuz? Mən nə bilim? Onları başa düşmək üçün tarixi-nadiri oxuyub başa çıxmaq lazımdır ki, buna hələ hövsələsi çatan adam olmayıb. Bir də ki, oturub özünə əziyyət verib oxumaq nəyə gərək? Bir azca düşünəndə ki, axı bu əziyyətə dəyər, əsla dəyməz. O kitab ki, bu yığnağı anlamaq üçün oxunacaq, lənət o kitaba. Dəyməz, vallah, dəyməz. Çün ki oxusan da onlardan bir şey anlamağın əbəsdir.

Biri fars dilində danışır, biri erməni dilində, biri fransız dilində. Yığnaqdan, vallah, elə qarışıq səslər gəlir, heç özləri bir-birini anlayır ki?.. Biri fars mollası kimi səhərdən axşama moizə deyir. Biri erməni keşişi kimi Xaçaturyandı, nədi, onun halına ağlayır. O biri fransızsayağı bacılığa çağırır, amma ətrafdakı səs onu eşitməyə izn vermir.

Dəli yığnağı da, açıqca dəli yığnağı. Gözlü olsun, görməsin. Görsə, deyəcək axı bura Azərbaycandır, bu dildə niyə bircə kəlmə danışan yoxdur bunların arasında? Axı bu torpağın üzərində bərqərardır bu yığnaq. Yaxşı ki, görən yoxdur. Elə özləri yığılır, özləri dağılır, özləri danışır, özləri eşidir.

Bunları görən tək Molla Xaçatur Makaron adlı bir qoca kişidir, yığnağın çay verənidir. Bu kişi orda-burda hərdən ağzından söz qaçırır, qulağımıza çatır. Həmin o kişidən savayı onları kim görür, kim eşidir, kim dinləyir axı. Kişinin də adını çəkdim, bilsələr, Allah bilir, başına nə oyun gətirəcəklər. Barı heç kim Molla Xaçatur Makaron adını dilinə gətirməsin.

Hə, o gün kişi deyirmiş ki, yığnaq yaman qarışıbmış. Yenə ağız deyəni qulaq eşitmirmiş. Deyir qulağıma dəyən ermənilərin humanitar yardım alması üçün AXCP-nin hıçqırtı ilə ağlaması, "Müsavat"ın "erməni soyqırımı"nı xatırlayıb hönkürməsi, "Milli Şura"nın bir-birinə qarışan üzvlərinin isə fars mollaları ilə başa düşülməyən telefon danışıqları idi.

Kişi deyir ki, vallah, bunlar dəlidirlər. Mən də deyirəm ki, ay kişi, dəli sözünü ağzına alma, səhv anlayarlar səni. Deyərlər bəlkə igiddən-zaddan danışırsan. Bunların igidliyini-filanını görən olmayıb. Hə, igidlərimizi ölümə göndərdiklərini de, deyim ki, əla. İllər əvvəl torpaq satıb minlərlə igidimiz üçün hazırladıqları ölümü de, deyim, hə. Düz iki müharibəyə səbəb oldular. İkisində də minlərlə igidimiz şəhid, qazi oldu.

Onda Azərbaycan dilində yenə danışa bilirdilər bir-iki kəlmə. İndi o da yaddan çıxıb. Erməni, fars, fransız dilində zayıllayırlar, nə yanlarına gedib eşidən var, nə də məhəl qoyan.

Çün ki ta bunlara hamı dəli kimi baxır. Hə, axı sevdasına çatmayan da dəli olur. Bir qızı sevib ona çata bilməyən dəli kimi. Heç hənanın yeridirmi, deyirsinizsə, hə yeridir. Bunlar da taxta çıxmağın qara sevdası ilə dəli olublar da.

Hə, bu dəli yığnağı ki var, məsləhəti-tövsiyə budur ki, qoy danışsınlar, fikir verməyin. Deyir, dərdli deyingən, danışqan olar. Amma çox təəssüf ki, bunların dərdinə bu ölkəyi-diyarda nə əlac, nə dava, nə də ki dərman var. Bu səbəbdən də hələ bu dəli yığnağında nələr görüləcək, onu da Allah-təala bilir...

***Mətanət Məmmədova***

# "ABŞ regionda əsas vasitəçi olmaq istəyir"

## *DEPUTAT MÜNASİBƏT BİLDİRDİ*

"ABŞ dövlət katibi Antoni Blinkenin Azərbaycan Respublikasının Prezidentinə zəng etməsi və Ermənistanla sülh müqaviləsinə maraqlı olması barədə fikirlər söyləməsi təbiidir. Çünki bu gün ABŞ Cənubi Qafqazda möhkəmlənmək niyyətindədir. Onun məqsədi bilavasitə Rusiyanı Qafqazdan sıxışdırıb çıxartmaq və burada öz mövqeyini möhkəmlətməkdir. Məhz buna görə də Amerika müəyyən məsələlərə, xüsusilə sülh müqaviləsinin bağlanılmasına və Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılmasına önəm verir". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Tahir Rzayev deyib.



Onun sözlərinə görə, ABŞ strateji tərəfdaş kimi Azərbaycanı daha üstün mövqedə görür: "Çünki bugünkü gündə Azərbaycan Prezidentinin yürütdüyü siyasət dünyada demokratiyanın genişləndirilməsinə, sülh və əmin-amanlığın bərpa olunmasına, ölkələrin suverenliyinin təmin edilməsinə, eləcə də Qafqazda milli məsələlərin beynəlxalq normalar çərçivəsində həllinə yönəldilib".

Deputat sözlərinə davam edərək bildirib ki, bu gün Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir: "Ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. ABŞ da bunu görür və bu səbəbdən Azərbaycanın yürütdüyü siyasəti dəstəkləyir. Çünki bu siyasət beynəlxalq norma və prinsiplərə tam uyğundur. Azərbaycanın öz sərhədlərinin möhkəmləndirilməsi, sərhəd-keçid məntəqəsinin yaradılması, xalqın mənafeyi uğrunda həyata keçirdiyi tədbirlər ABŞ tərəfindən dəstəklənməyə bilməz. Ona görə də Blinkenin Prezident İlham Əliyevə zəng etməsi sülh prosesinə önəm verməklə və bunu sürətləndirmək məqsədi daşıyır. Artıq Rusiya Qafqaza təsir etmək vasitələrini getdikcə itirir. Belə bir fürsətdən istifadə edərək ABŞ, o cümlədən, Avropa ölkələri Qafqaz dövlətləri ilə münasibətləri yaxşılaşdırmağa çalışır. Məhz Blinken və ölkə başçısı İlham Əliyev arasında gedən zəng danışığının əsasında da bu məsələlər dayanır. Çünki ABŞ regionda sülhün onun vasitəçiliyi ilə təmin olunmasında maraqlıdır. Bu, ABŞ-a yeni dividentlər gətirir".

***Ləman Sərraf***



**Elçin Bayramlı**

# Niyə yarıçılpaq gəzmək olmaz?

Yay mövsümü gələndən Bakıda ənənəvi mövzulardan biri daha da aktuallaşıb. Qızların, qadınların həddən artıq açıq-saçıq geyinməsi nəticəsində yaranan problemləri deyirəm. Qısası, bəzi xanımlar "işə gecikdiyindən" və "skleroz olduqlarından" üst paltarı geyməyi unudaraq şəhərə yatmaq paltarında çıxırlar ki, bunun da nəticəsində ciddi problemlər yaranır. Vallah şişirtmirəm, bu çox təhlükəli problemdir, belə ki, birbaşa insan həyatının itirilməsi ilə nəticələnə bilir. Necəmi? Mən yazım, siz oxuyun görün haqlıyam, yoxsa yox...

Tutaq ki, gözəl və gənc bir xanım bir qarışlıq mini-yubkada, bədənin 10 faizini örtən maykada minib avtobusa və qabaq sıraların birində əyləşib. Salondakı gənc oğlanların o saat avtobusun həmin qisminə yığılmasını qoyaq bir tərəfə. İndi bu zalım oğlu sürücü maşını necə idarə etsin? Qabaq tərəfə saysız-hesabsız güzgüləri horizontal, vertikal və diaqonal vəziyyətdə havayı yerəmi düzüb?

Xülasə, bu məzlum sürücü yola baxmaq əvəzinə qabaq şüşənin lap aşağısında yerləşən həmin böyüdücü güzgülərdən xanımı seyr etməyə bilərmi? Xeyr, Azərbaycanda bu mümkün deyil! Əvvəla, biz müsəlmanıq, ağlımız kəsməyəndə zorakılığa məruz qoyularaq sünnət olunmuşuq, ona görə də seksual temperament, cinsi natamamlıq kompleksi yüksək səviyyədədir.

İkincisi, bizim xalqın kişiləri belə mənzərələrə o qədər də öyrəncəli deyil, adicə küçədə yeriyərkən dönüb çimərlik paltarında qarşısından keçən bir xanımın arxasınca baxanda qarşıdan gələnlə toqquşmurlarmı? Küçədə bu əməliyyat kiçik xəsarətlə qurtara bilər, amma avtobusda vəziyyət fərqlidir. Sürücü yola baxmağın başını buraxaraq salondakı mənzərələri seyr edib feyziyab olmağa başlayanda qəza baş verə bilər. Nəticədə, xeyli sərnişin və özü o dünyaya yollana bilər.

Təsəvvür edin ki, bir qız və ya arvad dar kalqotkada və ya bir neçə sm-lik mini-yubkada, sinəsi və beli 90 faiz açıq maykada svetoforun qırmızı işığını filanı vecinə almayaraq nazlana-nazlana səkkizvari yerişlə yolu keçir! Bütün sürücülərin başları eyni istiqamətə dönəcəkmi? Dönəcək! Burda zəncirvari qəza baş verəcəkmi? 100 faiz! Nəticədə azı bir neçə nəfər öləcək və ya xəsarət alacaq, bir neçə avtomaşın sıradan çıxacaq, ölkə iqtisadiyyatına zərər dəyəcək!

Mən özüm bir neçə dəfə belə qəzaların şahidi olmuşam. Düzdür, yol polisləri sənədləşdirəndə qəzanın səbəblərini bir az dəyişdirib ki ayıbdır, rüsvayçılıq olmasın, dünyada bizə gülməsinlər. Amma hər halda biz özümüz gözümüzlə gördüyümüzü necə unuda bilərik?

Ötən həftə maraqlı bir mənzərənin şahidi oldum. Küçə ilə tək gedən yarıçılpaq qıza ilişmək yarışında bir-birinə güzəştə getməyən iki qaqaş əvvəl türmə jarqonu ilə sözləşib, sonra qaydasız döyüşə başladılar. Bunlar al-qana qərq olduqları vaxtda həmin qız qulağında nauşnik dingildəyə-dingildəyə, daha doğrusu "səkkiz yaza-yaza" yoluna davam edirdi...

Belə misalları çox gətirə bilərəm, amma başınızı niyə ağrıdım ki? Qısası, dediyim odur ki, qızlar, qadınlar bir az ehtiyatlı olsunlar, normal paltar geyinsinlər əyinlərinə. Başa düşürük, yaydır, istidir. Amma bir günahsız insanları da nəzərə alın. Vallah indiki zamanda ölmək yaşamaqdan bahalıdır.

Həm də bu istilər təkcə sizə təsir etmir ki? Bəs biz kişilər niyə lüt-üryan küçəyə çıxmırıq? Biz başa düşürük, indi parça bahadır, çox xanımlarımız imkansızlıq ucbatından az parça ala bilirlər. Yazıq dərzi də neyləsin, bundan ancaq mini-yubka çıxa bilər.

Dükanlarda da "mini"lər uzun yubkalardan, şəffaf kalqotkalar, 15 sm-lik şortiklər normal şalvarlardan ucuzdur. Ona görə də, imkansız xanımları anlamaq olar, pulları çatmır tam geyim almağa. Yaxşı, bəs varlı-hallı xanımların yarıçılpaq vəziyyətdə şəhərə çıxmasına nə deyirsiniz?

Soruşmaq ayıb olmasın, niyə kimsə durduğu, ya da oturduğu yerdə naməlum dünyaya yollanmalıdır? Bəlkə birinin ailəsinin heç pulu və ya satmağa evi yoxdur ölü mərasimlərini və digər xərcləri ödəməyə?

Dediyim odur ki, əhəmiyyətsiz bir hal kimi görünən bu vəziyyət ciddi problemlər yaradır. Mən hələ bəzi məsələlərə- zorlamaların və təhlükəli xəstəliklərə yoluxmanın artmasında belə geyimlərin rolu və sair bu qəbildən olanlara - toxunmadım. Tak çto, əziz xanımlar, hoqqa çıxarmayın. Bəşəriyyət bu qədər böyük inkişaf yolu keçib, yenidən ibtidai icma quruluşuna qayıtmaq lazım deyil

# Qərənfildən Xarıbülbülə gedən yolun Sarvanı...

Əvvəli ötən sayımızda



*Yaşar Əhmədov*
*Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*

Bu, ulu öndər Heydər Əliyev ideoloji məktəbinin siyasi-strateji və məntiqi yekunudur. Dövlət o zaman möhkəm olur ki, güclü lideri olsun! Güclü lideri də məhz güclü xalq meydana çıxarır. Prezident İlham Əliyev güclü Azərbaycan xalqının güclü, çevik lideri, diplomat, strateq Ali Baş Komandanıdır.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsinin uğurları bu illərdə səbrlə, soyuqqanlı diplomatiya ilə əldə olunmuşdur. Güclü liderin rəhbərliyi ilə bərpa edilən dövlət sərhədlərimiz, işğal altında qalan torpaqlarımızın azad olması ilə bahəm, həm də Azərbaycan xalqının özünə inamı qayıdır, özünəliderinin gücünə etibarı daha da möhkəmlənir. Hər kəs güclü rəhbər - güclü Ali Baş Komandan fövqündə özünü də güclü hesab edir, iki əsrdən (1813-cü il Gülüstan müqaviləsindən başlayaraq) bu gündək uzanan yoldakı "tabeçilik" kompleksindən çıxır, Vətənin müdafiəsi uğrunda həm də Ali Baş Komandanına - Prezidentinə hörməti və məhəbbəti çoxalır. İstər fərd, istərsə fərdlər toplumu və ya xalq-millət özü-özünə hörmət-sayqı saxlamasa, ona heç kim hörmət bəsləmir. Cəsarətli, mübariz, qorxmaz, Vətəni, torpağının varlığının var olmasını müdafiə edənlərin də hörməti olur, sözü eşidilir və belə xalqlar da sayılır, diqqət nöqtəsində olur! Ali Baş Komandanımız - Qarabağı işğaldan azad edən İlham Əliyev Azərbaycanın fenomen xilaskarı, rəhbəridir-qoy uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!

Bir çox əlamətdar və ağrılı-acılı hadisələrlə tarixə qovuşan 2020-ci ilin son aylarında Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşən Azərbaycan xalqı yerəgöyə sığmayan sevinc hissi və qururla Qarabag zəfərini qeyd etdi. Bu böyük qələbəyə aparan keşməkeşli yol 30 il sürdü. 30 il torpaqlarımızın Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzü nəticəsində düşmən tapdağı altında qalması Azərbaycan xalqının ürəyində bir yara oldu. 30 il Qarabağ həsrətilə alışıb-yanan ürəklərin fəryadı, Qarabağa qayıdacağı ümidi ilə yaşayan gözü yaşlı insanların duaları, bu qələbənin gerçəkləşməsi uğrunda dövlət başçılarımızın apardıqları ədalətli siyasi mübarizə, diplomatik danışıqlar və gərgin ordu quruculuğu, nəhayət ki, Zəfər gününü gətirdi!

Ümimmili lider Heydər Əliyev bu günün gələcəyini bilirdi və vaxtılə uzaqgörənliklə söylədikləri bu gün artlq Azərbaycanın reallığıdır: "Biz Qarabağ məsələsini həll edəcəyik. Vaxt lazımdır. Heç kim torpaqlarımızı ala bilməz, işğal olunmuş torpaqlarımız mütləq geri qaytarılacaqdır. Nəyin bahasına olursa olsun". Ata vəsiyyətini yerinə yetirən Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşanı azad etdi, Qarabağı işğaldan azad etdi. Bu həqiqətən də Azərbaycan tarixinə qızıl hərflərlə yazılan Böyük Zəfərdir!

1923-cü ildə Azərbaycanın tərkibində yaranan DQMV-nin qısa, lakin qanlı-qaralı tarixçəsi "xüsusi statusa" malik olmasından ibarətdir. Ümummilli liderin Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə seçilməsindən sonra sistemli və məqsədyönlü tədbirləri nəticəsində vəziyyət dəyişdi. 1970-1985-ci illərdə DQMV-də ümumi dəyəri 470 milyon manat olan əsas fondlar, 15 sənaye müəssisəsi və başqa istehsal sahələri istifadəyə verildi. 1979-cu ildə "Ağdam-Xankəndi" dəmiryolu çəkildi və istifadəyə verildi. Nəticədə, Qarabağın dağlıq və aran hissələrinin, respublikanın digər rayonları ilə daha sıx təsərrüfat əlaqələri yaradıldı. 1973-cü ildə Xankəndidə Azərbaycan Pedaqoji İnstitutunun filialı əsasında Pedaqoji İnstitut açıldı-burada erməni və rus fakültələri ilə bərabər Azərbaycan fakültəsi də fəaliyyət göstərirdi. Bu tədbirlər Ulu öndərin erməni separatçılarını açıq çıxışlardan çəkindirmək siyasəti və Azərbaycan xalqı qarşısında böyük tarixi xidmətləri idi, çünki Dağlıq Qarabağın Azərbaycana bağlılığını təmin etdi.

Ulu öndərin ikinci dəfə Azərbaycanda hakimiyyətə qayıdışı ərəfəsində cəbhədə hərbi güc balansı artıq Ermənistanın xeyrinə idi, həmçinin informasiya mübarizəsində ermənilər üstün vəziyyəti ələ keçirmişdilər. Azərbaycanın paytaxtında hakimiyyət uğrunda şiddətli mübarizə gedirdi. Respublikanın şimalında və cənubunda separatçılar baş qaldıraraq Azərbaycanı parçalayıb "suveren Ləzgistan" və "muxtar Talış-Muğan Respublikası" yaratmağa çalışırdılar. O vaxtki Azərbaycanın rəhbərliyi təcrid olunmuş vəziyyətdə fəaliyyət göztərirdi, çünki ölkəni diletant səviyyəsində idarə edərək MDB-nin əksər respublikaları, həmçinin yaxın qonşuları - Rusiya və İranla münasibətləri korlamışdılar. Ulu öndər 1993-cü ilin iyun ayında hakimiyyətə qayıtdıqdan dərhal sonra vəziyyəti düzgün qiymətləndirərək müharibənin davam etdirilməsinin uğurlu nəticələr verməyəcəyi qənaətinə gəlir və ilk addım olaraq atəşkəs əldə edərək mənasız axıdılan qanın qarşısını alır. Bundan sonra Dağlıq Qarabağ reallığını dünyaya çatdırmaq, dünyanın aparıcı siyasi liderlərini danışıqlar prosesinə cəlb etmək, beynəlxalq ictimai rəydə dönüş yaratmaq və ilk mərhələdə informasiya müharibəsini qazanmaq uğrunda uzun və gərgin siyasi mübarizə yolu başlanır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin danışıqlar yolu ilə nizama salınması Ulu öndərin 1993-cü ildən başlayaraq xarici siyasət fəaliyyətində başlıca yer tutmuşdur.

Dahi öndərin münaqişənin aradan qaldırılmasına nail olmaq üçün ən yüksək səviyyədə ATƏT-in Zirvə toplantılarında, Minsk Qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə, beynəlxalq forumlarda, həmçinin dünyada siyasi gücə malik olan dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli, eləcə də, çoxtərəfli görüşlərdə bu münaqişənin mahiyyətiyinə, reallığına dünya birliyinin diqqətini cəlb enməyə bacarmışdır. Böyük öndər bütün görüşlərində və çıxışlarında, siyasi fəaliyyətində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə çalışırdı. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın düşdüyü ağır vəziyyət, yerlərindən-yuvalarında qovulan bir milyona yaxın insanların ağır şəraitdə çadırlarda yaşadıqları və öz evlərinə qayıtmaq arzusunda olduqları haqqında dünya ictimaiyyətinə ətraflı məlumat verən milli liderimiz özünün qətiyyətli və prinsipial mövqeyini hər bir görüşdə, hər bir çıxışında dünya ictimaiyyətinə tarixi faktlarla əsaslandıraraq çatdırırdı.

Rusiyanın ciddi dəstəyi ilə hərbi əməliyyatlar aparan ermənilərin maksimum məqsədi Dağlıq Qarabağ ətrafında təhlükəsiz bufer zonası yaratmaq idi. Bundan əlavə, ermənilərin daha ciddi niyyətlərindən biri də Yevlaxı ələ keçirmək, Murovdan enərək Gəncəyə girmək və bu hissəni Bakıdan ayırmaq idi. Çox təhlükəli bir vəziyyət yaranmışdı. Bu məqamda Rusiya vasitəçilik təklifini irəli sürdü və Azərbaycan Rusiyanın təklif etdiyi atəşkəsə razılıq verdi. Atəşkəs sənədinin Bişkekdə imzalanmasını təklif edildi. Beləliklə, Birinci Qarabağ müharibəsində atəşkəsi nəzərdə tutan sənəd olan Bişkek protokolu 1994-cü ilin mayın 12-də imzalanır. Sənədə Ermənistan və Azərbaycanın parlament sədrləri, həmçinin Dağlıq Qarabağın erməni və azərbaycanlı icmalarının rəhbərləri imza atmışdır. Azərbaycan tərəfi sənədə iki əlavə ilə imza atmışdır. Bişkek protokolunun 5-ci abzasında "tutulmuş ərazilər" sözü "işğal olunmuş ərazilər"lə əvəzlənmiş və atəşkəsdən sonra cəbhə xəttində yerləşdiriləcək müşahidəçilərin "beynəlxalq müşahidəçilər missiyası" olması Azərbaycan tərəfinin təklifi ilə qeyd edilmişdir.

Danışıqlar prosesində Ulu öndəri ən çox düşündürən məsələ bu olmuşdur ki, Qərb dünyasının aparıcı dövlətləri və beynəlxalq təşkilatlar Ermənistanı təcavüzkar dövlət saymır. Döğrüdür, Azərbaycanla daima həmrəy olan qardaş Türkiyə Respublikası hər bir zaman və hər yerdə Ermənistanın təcavüzkar siyasəti haqqında bəyan edirdi. İslam Konfransı Təşkilatı Azərbaycan Respublikasına siyasi dəstəyini göstərərək Ermənistanın Azərbaycan torpaqlarına təcavüz etməsi haqqında qətnamə qəbul etmişdir. Lakin Qərb dünyası ölkələrində vəziyyət başqa idi.

Müdrik və uzaqgörən dövlət başçısı olan Ulu öndər münaqişənin başlıq mətninə xüsusi diqqət yetirirdi. Məhz Heydər Əliyevin tövsiyyəsi ilə münaqişə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi adlandırılmağa başlanmışdır, çünki əks halda qarşıdurmanın iki ölkə arasında deyil, Dağlıq Qarabağla Azərbaycan arasında baş verməsi təəssüratı yaranırdı.

1992-ci ildə ATƏT çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq-Qarabağ münaqişəsinin həllində vasitəçilik edəcək 12 dövlətdən ibarət Minsk qrupu yaradıldı və Birləşmiş Millətlər Təşkilatı bu məsələni ATƏT-in himayəsinə verdi. 5-6 dekabr 1994-cü ildə keçirilən Budapeşt sammiti Ulu öndərin iştirakı ilə ilk sammit idi. Bu sammitdə Minsk prosesi çərçivəsində həmsədrlik institutu təsis olundu. Ona əvvəl Finlandiya ilə Rusiya, sonra isə 1995-97-ci illər ərzində İsveç ilə Rusiya başçılıq ediblər. Beləliklə, Rusiyanın "fərdi sülhyaratma" istəyinin qarşısı alındı. Budapeşt sammitində "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi" adlı qətnamə qəbul edildi. Bu qərarda ATƏT-in sülhməramlı qüvvələrinin yaranması və saziş əldə olunarsa, Dağlıq Qarabağ bölgəsinə ATƏT-in sülhməramlı qüvvələrinin daxil olması nəzərdə tutulmuşdur. Beləliklə, ATƏT-in növbəti, Lissabonda keçiriləcək dövlət başçılarının dördüncü Zirvə görüşü ərəfəsində yeganə nailiyyət Azərbaycan və Ermənistan arasında 1994-cü ildə razılaşdırılan atəşkəsin qorunması oldu. Buna baxmayaraq, dahi şəxsiyyət 1996-cı il noyabrın 30-da Binə hava limanında jurnalistlərə verdiyi bəyanatında Lissabon zirvə görüşünə böyük əhəmiyyət verdiyini və Budapeştdən Lissabona qədər keçən dövrü də müsbət qiymətləndirdiyini bildirmişdir.

Qafqaz regionu, xüsusilə Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yüksək səviyyədə ilk dəfə geniş müzakirə olunacağı ATƏT-in Lissabon sammiti 1996-cı il dekabrın 2-3-də 52 Avropa dövləti, ABŞ, Kanada və 10 Asiya-Afrika dövləti başçılarının müşahidəçi statusunda iştirakı ilə keçirilmişdir. Buna qədər vəziyyət tamamilə Ermənistanın xeyrinə idi. Lakin Lissabon sammitində Ulu öndər öz veto hüququndan istifadə edərək, adi silahların məhdudlaşdırılması ilə bağlı ATƏT-in bütün yekun sənədlərinə, həmçinin Avropada təhlükəsizlik konsepsiyasına aid olan sənədlərə veto qoydu Ermənistan-Azərbaycan Dağlıq-Qarabağ münaqişəsinin həllinin əsas prinsipləri Lissabon sammitində məhşur veto qarşıdurmasında milli liderin qalib çıxmasının nəticəsində qəbul edilmişdir. Ermənistan sammitdə təklənmiş, təcrid olunmuş, pat vəziyyətində qalır. Ümummilli liderin mövqeyini 53 dünya dövləti dəstəkləyir. Bununla öz parlaq diplomatiya məharətini bütün dünyaya nümayiş edən böyük lider ABŞ nümayəndə heyətinə başçılıq edən vitse-prezident Albert Qorun təklifi ilə bu prinsiplərin ATƏT-in fəaliyyətdə olan sədrinin ayrıca bəyanatında səsləndirilməsinə nail olur. Həmin prinsiplər aşağıdakılardı: *Azərbaycan və Ermənistanın ərazi bütövlüyünün tanınması; *Azərbaycanın tərkibində Dağlıq Qarabağa ən yüksək özünüidarə statusunun verilməsi; *Dağlıq Qarabağ əhalisinin təhlükəsizliyinin təmin edilməsi.

Ümummilli lider Lissabon görüşünün tarixi əhəmiyyətini dəyərləndirərək bu üç prinsipin səsləndirilməsi uğrunda aparılan gərgin mübarizəyə görə qiymətləndirmişdir: "Lissabon Zirvə görüşünün Azərbaycan üçün böyük əhəmiyyəti bir də ondan ibarətdir ki, biz həmin toplantıda Ermənistan-Azərbaycan münaqişəsinin mahiyyətini açıb həm Zirvə görüşünün iştirakçılarına, həm də bütün dünya ictimaiyyətinə bildirdik". Rəsmi materiallarda qeyd edilir ki, AR-in Prezidenti Heydər Əliyev 1996-cı il 2 dekabr Lissabon Zirvə görüşündə səsləndirilən nitqində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, erməni təcavüzü barədə ümumi məlumat vermişdir.Ulu öndər çıxışında Ermənistan tərəfinin bu münaqişədə məqsədini təcavüzün nəticələrini qanuniləşdirmək və Azərbaycan ərazisində ikinci erməni dövləti yaratmaq niyyəti kimi qiymətləndirib, bütün bunlara yol verilməyəcəyini iştirakçı dövlətlərin başçılarına elan etmişdir. Azərbaycan xalqının liderinin Azərbaycanın gələcəyi uğrunda bütün dünya dövlətləri qarşısında nümayiş etdirdiyi diplomatik istedad, cəsarət və müdriklik, əminəm ki, bu parlaq şəxsiyyətə hər bir insanda rəğbət və qürur hissi yaradır. Bəli, bir həqiqət danılmazdır - biz Qarabağ zəfərinə vaxtilə Ümummilli liderin gərgin əməyi və siyasi mübarizəsi nəticəsində nail olmuşuq. Biz, azərbaycanlılar xoşbəxt millətik, çünki Uca Tanrı Heydər Əliyev kimi dahi şəxsiyyəti Azərbaycan xalqına bəxş etmişdir. Heydər Əliyevin öz xalqına qoyub getdiyi zəngin və tükənməz irsindən hələ neçə-neçə yeni nəsillər bəhrələnəcək, yaşayıb-yaradacaqdır. Ümummilli liderin irsi - həm Qarabağ zəfərinin bünövrəsi, həm də gələcək nəsillərin xoşbəxt və firavan həyatının zəminidir. ATƏT-in Lissabon Zirvə görüşündən sonra Rusiya ilə yanaşı, ABŞ və Fransa nümayəndələri də Minsk Qrupunun həmsədrləri təyin olundu. Beləliklə, Ulu öndər ərazilərində millətlərarası qarşıdurma yaranan heç bir dövlət başçısının bacarmadığını bacardı - danışıqlar prosesinə dünyanın aparıcı siyasi gücə malik olan dövlətlərin liderlərinin cəlb olunmasına nail oldu. Ulu öndərin siyasi mübarizəsi nəticəsində Lissabon sammitinin sənədlərində ilk dəfə yazıldı ki, Azərbaycanın və Ermənistanın ərazi bütövlüyü tanınsın, Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcəli özünüidarəetmə statusu verilsin və Dağlıq Qarabağın əhalisinin - həm erməni, həm də azərbaycanlı əhalisinin təhlükəsizliyi təmin edilsin. Bu, öncə Ermənistanla Azərbaycan arasında gedən informasiya müharibəsində kəskin dönüş, daha sonra, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi reallığının dünya ictimaiyyəti tərəfindən yekdilliklə qəbul edilməsi kimi qiymətləndirilməlidir.

1997-ci ilin iyun ayından başlayaraq ATƏT-in Minsk Qrupunun həmsədrləri məhz Lissabon prinsiplərinə əsaslanaraq iki hissədən ibarət təkliflərlə çıxış etmişlər - Dağlıq Qarabağın ətrafında yerləşən 7 işğal olunmuş rayonun azad edilməsi və Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsinə dair. Onların təqdim etdikləri ilk təklif münaqişənin "paket" həllini nəzərdə tuturdu, yəni Dağlıq Qarabağın statusunun müəyyən edilməsi bütün məsələlərə baxılması ilə eyni vaxtda baş verməli idi. İkinci təklif isə münaqişənin "mərhələli həll" təklifi idi. O zamanlar Azərbaycan Prezidenti olan Heydər Əliyev həmin planlarla tam razı olmasa da, sülh prosesinin ölü nöqtədən çıxarılması məqsədilə həmsədrlərin hər iki təklifini qəbul etmişdir. Ermənistan Prezidenti Levon Ter-Petrosyan isə ikinci təkliflə razılaşdı. Sonralar Heydər Əliyev bu barədə demişdir: "Biz bunu qəbul etdik. Ədalət naminə deməliyəm ki, Ermənistanın o zamankı Prezidenti Levon Ter-Petrosyan buna müsbət reaksiya göstərdi. Oktyabr ayında Strasburqda olduğumuz zaman da rəsmi olaraq bu təklifi prinsipcə qəbul etdiyimizə dair ortaq bir bəyanat verdik". Lakin Ermənistanda Levon Ter-Petrosyana qarşı müxalifət meydana çıxdı və o,1998-ci ilin fevral ayında istefa verdi. Bundan bir qədər sonra R.Koçaryan prezident seçildi. 1998-ci il noyabrın 9-da həmsədrlər həm beynəlxalq hüquq normalarına, həmçinin, Azərbaycanın dövlət maraqlarına zidd "ümumi dövlət" təklifini irəli sürdülər. Buna cavab olaraq Ulu öndər qətiyyətlə bu təklifi müzakirə etməkdən belə imtina edərək ATƏT-in Minsk Qrupunun fəaliyyətini kəskin tənqid etmişdir, çünki bu təklifin qəbul ediləcəyi təqdirdə Azərbaycanın ərazisində iki dövlətin yaranması və Azərbaycanın Dağlıq Qarabağa bütün hüquqlarının itirilməsi planlaşdırılmışdır. Heydər Əliyev çıxışlarının birində də bu barədə demişdir: "Onların nümayəndəsi buraya bir neçə dəfə gəldi, amma dedim ki, bunu qəbul edə bilmərik.

Ardı Səh. 13

Əvvəli Səh. 12

Sonra Amerika Konqresində danışmağa başladılar ki, niyə Azərbaycan Minsk Qrupunun təkliflərini qəbul etmir, Ermənistan qəbul edir? Ermənistan Minsk Qrupunun təklifini qəbul etmədikdə nədənsə bir nəfər də qalxıb demədi: Ermənistan niyə bunu etmir? Azərbaycan yalnız bir dəfə təklifi qəbul etmədikdə, bizim başımıza nələr gəlmədi”.

Belə bir vəziyyətə Milli lider çox böyük əzm, cəsarət və diplomatik məharətlə ona təzyiq göstərməyə çalışan Minsk Qrupunun planlarının həyata keçməsinə yol verməmişdir: ”Minsk Qrupu həmsədrlərinin təmsilçiləri uzun sürən fasilədən sonra, görünür, danışıqlar prosesini yenidən canlandırmaq istəyi ilə 1997-ci il noyabrın 9-da Azərbaycan tərəfini çox məyus edən və danışıqların davam etdirilməsinə imkan yaratmayan sayca üçüncü təklifi irəli sürmüşlər. Bu təklif dünya praktikasında mövcud olmayan ”ümumi dövlət” ideyasına əsaslanırdı və ATƏT-in iki sammitinin təsdiq etdiyi qərarlardan və prinsiplərdən irəli gələn əvvəlki mövqedən geri çəkilməkdən başqa bir şey deyildi. Bu təkliflər əslində Dağlıq Qarabağı respublika formasında dövlət ərazi qurumu kimi ayırır və ona uydurma ”ümumi dövlət” çərçivəsində Azərbaycan ilə bərabər status verirdi. Həm də bu ”ümumi dövlət”in Azərbaycanın beynəlxalq aləmdə tanınmış sərhədləri çərçivəsində yaradılmalı olduğuna istinad edilməsi Azərbaycanın suverenliyi və ərazi bütövlüyü üçün təminat yaratmır, əslində bunları pozur”. Bununla Ümummilli lider bir daha yüksək siyasi iradəyə malik olan dahi dövlət xadimi olduğunu sübut etmiş və Azərbaycan Respublikasının dövlət mənafeyinə zidd heç bir planın baş tutmayacaqını böyük cəsarətlə bütün dünyaya bəyan etmişdir.

1999-cu il ərzində Amerika Birləşmiş Ştatlarının rəhbərliyi, prezident Klinton, dövlət katibi xanım Olbraytın xahişi ilə Heydər Əliyev bir neçə dəfə Robert Koçaryanla görüşüb danışıqlar aparmış, hətta bu danışıqlar prosesində mövqelərin xeyli yaxınlaşması da baş tutmuşdur, lakin həmin ildə Ermənistan parlamentində baş verən terror hadisəsindən sonra Ermənistan əldə edilmiş razılaşmalardan yenə də imtina etmişdir.

Beləliklə, Cənubi Qafqazda ən ”uzunömürlü” münaqişə olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında danışıqlar prosesinin Ermənistan tərəfindən dəfələrlə pozulması Qafqaz regionun, Avropanın və bütün dünyanın təhlükəsizliyinin təmin edilməsində başlıca maneə olmuşdur. ”Ümumi dövlət” prinsipinin ortaya atılması, sözsüz ki, öz məqsədləri uğrundə hətta terrorçuluq əməllərindən belə çəkinməyən Ermənistan millətçi dairələrinin maraqlarına tam cavab verirdi və münaqişənin nizamasalma prosesinə maneçilik törətməklə yanaşı tərəflərin arasında olan ziddiyyətləri daha da dərinləşdirdi. Nəticədə, danışıqlar prosesində bir durğunluq yarandı və münaqişənin nizama salınması istiqamətində müsbət irəliləyiş əldə etmək mümkün olmadı. Danışıqlar prosesinin uğursuzluğu nəticəsində yaranmış belə bir şəraitdə Heydər Əliyev dünya dövlətləri ilə sıx əməkdaşlıq və inteqrasiya proseslərinə qoşulmaq imkanlarından geniş istifadə edərək bütövlükdə Qafqaz regionun geosiyasi vəziyyətində ciddi dəyişiklik etmək uğrunda mübarizəyə başladı.

Dahi rəhbərin dünya siyasətində ən mühüm uğurlarından biri də o olmuşdur ki, bütün maneələrə baxmayaraq, Cənubi Qafqazda qlobal iqtisadi layihələrin təməlini qoyub uğurla həyata keçirdərək böyük dövlətləri ermənipərəst mövqelərindən uzaqlaşdırıb regionda iqtisadi maraqlar müstəvisinə cəlb etməyi məharətlə bacarmışdır. Bunun bariz sübutu 20 sentyabr 1994-cü ildə Heydər Əliyevin müdrik dövlətçilik fəaliyyəti nəticəsində bağlanan Əsrin kontraktının 2017-ci ildə daha 50 il müddətinə uzadılması, nəinki təkcə Azərbaycanın, həm də bütövlükdə Orta Asiyanın təbii sərvətlərinin daşınmasında mühüm nəqliyyat dəhlizi olan tarixi Böyük İpək Yolunun bərpası strategiyası, bir-birinin ardınca həyata keçirilən Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi neft-qaz layihələrinin təməlinin qoyulması ilə yaradılmış iqtisadi amilin Ermənistan-Azərbaycan Dağlıq-Qarabağ münaqişəsinin həllində getdikcə daha önəmli rol oynamağa başlamasıdır. Eyni zamanda, Azərbaycan Respublikasının TASİS və TRASEKA proqramları çərçivəsində Avropa İqtisadi Komissiyası ilə sıx əməkdaşlıq yaradılmışdı. Bunun nəticəsində 1995-1998-ci illərdə Avropa-Asiya istiqamətində tranzit yüklərin daşınmasında respublikamızın nəqliyyat kommunikasiyasından istifadə edilmiş və onun yükdaşıma dövriyyəsi 10 dəfə artmışdı. (12,s.244) Gürcüstan da bu proseslərə qatıldı. Həyata keçirilən layihə çərçivəsində Gürcüstanla Azərbaycan sərhədində yerləşən”Qırmızı körpü” yenidən qurulmuş, TRASEKA yolu üzərində olan qəzalı körpülər bərpa edilmişdi. 1993-cü ildən əsası qoyulan TRASEKA proqramı çərçivəsində Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin keçdiyi ölkələrdə Avropa İttifaqının ayırdığı vəsait hesabına onlarca layihələr reallaşdırılmıdır.(12,s.249) Lakin Ermənistan bu layihələrdən təcrid olunmuş vəziyyətdə qaldı və bununla da özünün Cənubi Qafqazda siyasi, sosial-iqtisadi inkişafa və ümumiyyətlə Qafqazda müasir dövrdə yaşayan xalqların mədəniyyətlərarası dialoqunun qurulmasında maneə olan bir dövlət olduğunu sübut etdi. 1996-cı ilin fevralında Azərbaycana rəsmi səfərə gələn Gürcüstanın Prezidenti Ediard Şevardnadze Bakı Dövlət Universitetinin professor-müəllim heyəti qarşısında çıxış edərkən Azərbaycan Prezidenti Heydər Əliyevin Qafqazda sülhvə əmin-amanlığın bərqərar olunmasında xüsusi rolunu qeyd etdi: ”Prezident Heydər Əliyev Qafqazda sülh təşəbbüsünü dəstəkləyən ilk dövlət başçısıdır”.

Beləliklə, Azərbaycan xalqının ümummilli lideri özünün zəngin dövlətçilik təcrübəsinə əsaslanaraq 2003-cü illədək davam edən gərgin siyasi fəaliyyəti nəticəsində Azərbaycan-Ermənistan Dağlıq Qarabağ probleminin tənzimlənməsi üçün beynəlxalq və milli hüquqi baza yaratdı, və ən əsası, Azərbaycana əbədi tarixi zəfər qazandıran ordumuzun quruculuğu ilə bağlı islahatlar unudulmaz Heydər Əliyevin adı ilə bağlıdır. Ordu quruculuğunun ən müxtəlif sahələri ilə bağlı zəruri qanunların qəbul edilməsi nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin hərbi hissələrin, ayrı-ayrı qoşun növlərinin formalaşdırılması tam başa çatdırılmış, ordunun maddi-texniki təminatı, maliyyə-təsərrüfat fəaliyyəti nizama salınmış, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı və döyüş ruhu yüksəldilmişdir.

Ulu öndərin əvəzsiz xidmətləri ona minnətdar olan xalqın tarixində və hafizəsində əbədiyyən yaşayacaq. Parlaq istedada, nəcib insani keyfiyyətlərə malik böyük siyasi və dövlət xadimi kimi Heydər Əliyevin əziz xatirəsi xalqımızın dilində canlı bir əfsanədir. Zəngin dövlətçilik təcrübasinə malik olan Heydər Əliyevin Azərbaycanda 35 illik hakimiyyəti dövründə Azərbaycan və ümumilikdə, Qafqaz xalqlarının xoşbəxt və firavan yaşamaları uğrunda həyata keçirtdiyi tarixi xidmətlər əvəzedilməzdir. Dünya siyasətində tanınmış, parlaq siyasi lider olan Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda qüdrətli Silahlı Qüvvələrin yaradılması, cəbhədə atəşkəsin əldə edilməsi, iqtisadiyyatın canlandırılması və Qafqazın geosiyasi xəritəsini dəyişən qlobal iqtisadi proyektlərin reallaşması kimi möhtəşəm işləri müasir Azərbaycan tarixinin ən şanlı və qürurverici səhifələridir.

2003-cü ildə ulu öndərin bütün ömrü boyu fədakarlıqla xidmət etdiyi idarəçilik məktəbinin ideyalarını, yolunu davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın müasir inkişaf dövrü başlayır və bizim ölkəmiz artıq iqtisadiyyatın, təhsilin, mədəniyyətin sürətlə inkişaf etdiyi bir ölkəyə çevrilir. Böyük öndər Heydər Əliyev Azərbaycan xalqına müraciət edərək demişdir: ”İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə ümidlər bəsləyirəm”.

Azərbaycan tarixində əbədi rəhbər kimi qalan Heydər Əliyevin ən böyük arzusu tarixi torpaqlarımızın işğaldan azad edilməsi və doğma Azərbaycanın ərazi bütövlüyünün bərpası idi. Bütün azərbaycan millətinin atası olan Heydər Əliyevin vəsiyyətini onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə igid Azərbaycan ordusu yerinə yetirdi - 44 günlük Qarabağ müharibəsində düşməni torpaqlarımızdan qovdu və üçrəngli bayrağımız yenə də doğma yurdumuzda, Qarabağın döyünən ürəyi - Şuşada qürurla dalğalandırıldı.

Ümummilli lider Heydər Əliyevin təyin edib həyata keçirtdiyi müdrik, uzaqgörən və çevik daxili və xarici siyasətini özünün siyasi kursu elan etmiş İlham Əliyevin mərdimərdanə və böyük cəsarətlə məqsədyönlü addımlar ataraq qondarma Dağlıq Qarabağ probleminin ədalətli həllininə nail oldu -. Ali Baş Komandanın əmri ilə Azərbaycan Silahlı Qüvvələri işğal olunmuş və Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağı silah gücünə azad etdi. Beləliklə, Azərbaycan xalqının təbii və müqəddəs hüququ təmin edilərək, Qafqaz xalqları tarixində böyük dönüş nöqtəsi olan tarixi hadisə - Azərbaycan torpaqlarının işğaldan azad edilməsi və dövlət sərhədlərinin bərpa olunması baş verdi.

Dəmir yumruqla başı əzilən düşmən 10 noyabr 2020-ci il tarixində ”Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Baş Naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı”nı - faktiki olaraq kapitulyasiya aktını imzalamağa məcbur edildi və ərazi bütövlüyümüz təmin edildi. (16) Beləliklə, Ali Baş Komandana inanan və güvənən cəsur Azərbaycan əsgərləri canları bahasına 30 illik işğala son verdi.

44 günlük İkinci Qarabağ Müharibəsində Böyük Qələbə münasibətilə Bakıda 10 dekabr 2020-ci il tarixində keçirilən möhtəşəm Zəfər Paradı ümummilli lider Heydər Əliyev siyasi irsinin layiqli varisi, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin təntənəsi oldu.Tarix sübuta yetirib ki, peşəkar ordusu olan xalqın müstəqilliyi əbədidir. Bu gün müstəqil Azərbaycanın da NATO standartlarına uyğun, şəxsi heyətinin döyüş ovqatı yüksək olan peşəkar və modern ordusu var. Bu ordunun inkişaf meyillərini şərtləndirən ən mühüm amillərdən biri məhz ölkənin uğurlu iqtisadi, daxili və xarici siyasəti olmaqla yanaşı, eyni zamanda, dünyada və bölgədə Azərbaycanın artan beynəlxalq nüfuzudur.Azərbaycanın güclü hərb ənənələri olsa da, müstəqillik qazandıqdan sonra ölkəmiz bu sahədə ciddi böhranla üzləşmişdir. Müstəqilliyin ilk illərində ordu quruculuğunda heç bir ciddi addım atılmamış, Silahlı Qüvvələr ayrı-ayrı siyasi qrupların əlində hakimiyyət uğrunda mübarizə alətinə çevrilmişdir. Nizami orduya malik olmayan Azərbaycan hərc-mərclik və xaos burulğanında ərazilərini bir-birinin ardınca itirmək məcburiyyətində qalmışdır. Ümummilli lider hakimiyyətə qayıdan sonra qarşısında dövlətçiliyin qorunub saxlanması ilə yanaşı, cəbhə bölgəsində hərbi uğursuzluqları aradan qaldırmaq, torpaqlarımızı işğal edən düşmənin qarşısını almaq, iqtisadi, siyasi, mənəvi və psixoloji cəhətdən ağır durumda olan bir ölkədə ordu quruculuğuna başlamaq kimi ağır vəzifələr dururdu. Daxili ictimai-siyasi sabitlik üçün potensial təhlükə mənbəyi sayılan qanunsuz silahlı qruplaşmaların zərərsizləşdirilməsi Ali Baş Komandanın üzərinə düşən məsuliyyət yükünü bir qədər də artırır, onun riskli və qətiyyətli addımlar atmasını zəruri edirdi. Yaranmış acınacaqlı durumda bu taleyüklü problemlərin həllinə paralel yanaşmaya, bütün sahələrdə köklü islahatların aparılmasına ehtiyac yaranmışdır. Ölkədə vəziyyətin sabitləşməsinə nail olmadan xarici investorları cəlb etmək, iri neft şirkətləri ilə müqavilələr imzalamaq, iqtisadi böhran və tənəzzül mərhələsini adlamaq mümkün deyildir. Belə bir şəraitdə vəzifə səlahiyyətlərinin icrasına başlayan Ulu öndər qısa müddətdə bütün sahələrdə vəziyyəti sabitləşdirməklə peşəkar idarəçi və xarizmatik şəxsiyyət olduğunu bir daha təsdiqlədi.

Qısa müddətdə daxildə baş qaldırmış destabilizasiya ünsürləri aradan götürüldü, ictimai-siyasi sabitlik təmin olundu, ölkənin bütün maddi-siyasi resursları və potensialı Ermənistanın işğalçı silahlı qüvvələrinə qarşı müqavimətin təşkilinə yönəldildi. 1993-cü il noyabrın 2-də xalqa müraciət edən Ümummilli lider ictimai ruh düşkünlüyünün qarşısını aldı, hamını bir nəfər kimi düşmənə qarşı mübarizədə fəal iştirak etməyə çağırdı-o müraciətində təkcə hərbi uğursuzluqların səbəblərini deyil, həm də vəziyyətdən çıxış yollarını göstərdi. Eyni zamanda, keçmiş hakimiyyətin dövründə Qarabağ məsələsindən çirkin siyasi məqsədlər üçün istifadə edildiyini, ordunun hakimiyyət uğrunda qeyri-qanuni mübarizəyə qoşulduğunu təəssüflə vurğuladı: ”Ordunu bir gündə, bir ayda, üç ayda yaratmaq mümkün deyil. Ancaq iki-üç il müddətində ordu yaratmaq, Azərbaycanın etibarlı müdafiəsini təşkil etmək olardı. Təəssüf ki, bu fürsətlər əldən verilmişdir”.

Ümummilli liderin xalqa müraciətindən sonra respublikamızdan kənarda hərbi xidmət keçən peşəkar zabitlərin, kadrların Azərbaycana axını başlandı-bu müraciət ictimaiyyətin ayrı-ayrı zümrələri tərəfindən dəstəkləndi, vətəndaşlar, eləcə də ayrı-ayrı təşkilat və müəssisələr ictimai müdafiə prosesinə fəal şəkildə qoşuldular, ordudan yayınma hallarının, cəbhədə geriləmələrin qarşısı alındı. Hərbi uğursuzluqlarla üzləşdiyini və daha irəliləyə bilmədiyini görən təcavüzkar Ermənistanın rəhbərliyi 1994-cü ilin mayında danışıqlar masası arxasında oturmağa, cəbhə bölgəsində atəşkəsi nəzərdə tutan Bişkek protokolunu imzalamağa məcbur oldu.

Sənədə Ermənistan və Azərbaycanın parlament sədrləri, həmçinin Dağlıq Qarabağın erməni və azərbaycanlı icmalarının rəhbərləri imza atmışdılar. Azərbaycan tərəfi sənədə iki əlavə ilə imza atmışdı. Bişkek protokolunun 5-ci abzasında ”tutulmuş ərazilər” sözü ”işğal olunmuş ərazilər”lə əvəzlənmiş və atəşkəsdən sonra cəbhə xəttində yerləşdiriləcək müşahidəçilərin isə 2beynəlxalq müşahidəçilər missiyası” olması qeyd olunmuşdur. Atəşkəs rejiminin erməni silahlı birləşmələri tərəfindən mütəmadi olaraq pozulduğunu, nəinki hərbçilərin, hətta mülki şəxslərin qətlə yetirildiyini, azərbaycanlılara məxsus mal-qaranın tələf edildiyini də təəssüflə vurğulamaq lazımdır. İnsanlığa yaraşmayan vandalizm özünü həm də onda göstərir ki, cəbhə bölgəsində çoxsaylı snayperçilər yerləşdirən Ermənistan təxribatçı əməllərinə son qoymaq istəmir.

Ümumilikdə, atəşkəsin əldə olunması Azərbaycanın iqtisadi inkişafının təmin edilməsi və ordu quruculuğu prosesinin uğurla aparılması baxımından mühüm bir mərhələ oldu-bu mərhələdən sonra ordu quruculuğu istiqamətində ciddi addımlar atıldı. Azərbaycan Silahlı Qüvvələrinin kəmiyyət və keyfiyyət baxımından komplektləşdirilməsi, peşəkarlıq səviyyəsinin yüksəldilməsi, maddi-texniki bazasının gücləndirilməsi, hərbçilərin maddi rifah halının ildən-ilə yaxşılaşdırılması, ordu hissələrinin ən müasir texnika və avadanlıqlarla təchiz edilməsi, eləcə də bu sahədə beynəlxalq təcrübənin mənimsənilməsi dövlət siyasətinin ən mühüm qollarından birinə çevrildi.

Ümummilli liderin vaxtilə ordu hissələrində şəxsi heyətlə müntəzəm keçirdiyi görüşlərin nəticələri zaman keçdikcə ordunun əzmkarlığının artmasında özünü büruzə verir. Ulu öndərin hərbi hissələrdəki vəziyyətlə, əsgər və zabitlərin problemləri, qayğıları ilə maraqlanması, hərbi təhsil sisteminin müasirləşməsinə və hərbi biliklərin tədrisinin yüksəlməsinə böyük diqqət yetirməsinin səmərəsi ordunun bugünkü səviyyəyə yüksəlməsində təzahür edir.

# Fars-molla rejimi tarixin arxivinə göndərilir



Bugünkü reallıq ondan ibarətdir ki, Azərbaycan dünyanın ən inkişaf edən, azad, demokratik dövlətlərindəndir. 44 günlük Vətən Müharibəsində Azərbaycanın Ermənistan üzərində hərbi qələbə qazanması və bu qələbəni siyasi, diplomatik cəbhədə başa çatdırması ölkəmizin gücünə güc qatdı. Artıq işğaldan azad edilmiş ərazilər gülüstana çevrilir, hər yerdə quruculuq, abadlıq, tikinti işləri aparılır. Bunun fonunda keçmiş qaçqın və məcburi köçkünlər öz doğma yurdlarına qayıdırlar. Yəni, Azərbaycanda dostu sevindirib üzünü güldürən, düşmənin bağrını çatladan işlər həyata keçirilir. Görünən ondan ibarətdir ki, Azərbaycanın əldə etdiyi uğurlardan ən çox Fransa, Ermənistan və fars-molla rejimi narahatlıq keçirir. Belə demək mümkündürsə, Azərbaycan dövlətinin bütün sahələr üzrə qazandığı nailiyyətlə sanki sözügedən dövlətlərin başına od töküb. Məhz buna görə də, hər vəchlə Azərbaycana qarşı gözdənsalma kampaniyası aparırlar. Fransa və Ermənistanın Azərbaycana qarşı yönəldilmiş terror fəaliyyətləri anlaşılandır. Bu ölkələr tarixən Azərbaycan xalqına düşmən münasibətdə olublar. Digər tərəfdən, canlarında hələ də səlib yürüşlərinin izləri qalmaqdadır. Fars-molla rejiminin Azərbaycana qarşı Fransa və Ermənistanla eyni ittifaqda birləşməsi başa düşülən deyil.

### Molla rejimi Şərqi Zəngəzurun açılmasından narahatdır

Molla rejimi özünü islam dövləti hesab edir və bütün müsəlmanların bir-birinə qardaş olduğunu söyləyir. Lakin xristian Ermənistanla birləşib, əhalisi müsəlmanlardan ibarət olan Azərbaycan dövlətinə qarşı qəsbkar siyasət həyata keçirir. Ermənistanla eyni mövqedən çıxış edərək müsəlman məscidlərinin dağıdılmasında, müsəlman ziyarətgahlarının yer üzündən silinməsində, müsəlmanların öldürülüb, soyqırıma məruz qalmasında iştirak edir. ”Ermənistana qardaş” deyib erməni terrorçuları ilə eyni səngərdə müsəlmanlara qarşı vəhşiliklər törədilməsində iştirak etməsi, əslində, fars- molla rejiminin fiziki görkəmi müsəlman, ruhu isə xristianlıqdan ibarətdir. Həm də o məsələ təsdiq olunur ki, fars-molla rejimi arasında bir ağıllısı yoxdur. Yəni, qırılmışın hamısı erməni xislətlidir və müsəlman Azərbaycana qarşı düşmən mövqedədir. Fikir verin, Xomneyi deyilən baş molla durub-durub sayıqlayır ki, - ”Zəngəzur dəhlizi bizim qırmızı xəttimizdir”. Deyən lazımdır, Zəngəzur dəhlizi açılır, sənə nə? Azərbaycan Şərqi Zəngəzurdakı tarixi torpaqlarda suverenliyini bərpa edəcək, sənə nə? Suallar təbii ki, çoxdur. Cavabların isə verilməyəcəyi şübhəsizdir. Çünki erməni təəssübkeşləridir və özlərini ermənilərdən biri hesab edirlər.

### Azərbaycanın dünyada artan gücü fars-molla rejimini narahat edir

Fakt ondan ibarətdir ki, Azərbaycan sabitlik adasıdır, təhlükəsizlik ən yüksək səviyyədə təmin olunub. Keçmiş ittifaq respublikalarının demək olar ki, hamısında qarşıdurma mövcuddur, bir növ xaos və anarxiya hökm sürür. Eləcə də, dünyanın bir sıra ölkələrində vətəndaş müharibələri, dövlətlərarası münaqişələr cərəyan edir. Azərbaycanın 44 günlük Vətən müharibəsi ilə Ermənistanın 30 il ərzində işğal altında saxladığı torpaqlarını azad etməsi və dünyanın ən sakit dövlət imicini qoruyub saxlaması yuxarıda qeyd etdiyim kimi, əmmaməli mollaları ciddi narahat edir. Bu səbəbdən də, Azərbaycana qarşı məkrli və terrorizm siyasəti aparırlar. İngiltərə, Fransa və nəhayət, Tehranda səfirliyimizə edilən xain hücumları ölkəmizin dünyada artan nüfuzuna, gücündən və qüdrətindən narahat olmalarından irəli gəlir. 2023-cü ilin yanvarın 27-də Azərbaycan Respublikasının Tehrandakı səfirliyinə edilən xain terror hücumu nəticəsində bir nəfər səfirlik əməkdaşı şəhid edildi, iki nəfər isə ağır yaralandı. Bu günə qədər də molla rejimi səfirliyə edilən xain hücuma düz-əməlli izahat verməyib, həm də dövlət səviyyəsində üzr istənilməyib. Bu yaxınlarda Qoşulmama Hərəkatının Bakıda keçirilən növbəti sammitində fars-molla rejiminin xarici işlər naziri səfirliyimizə edilən xain terror aktı ilə bağlı aparılan istintaq araşdırmalarını Azərbaycan tərəfini məlumatlandıracaqlarını bildirmişdir. Ancaq verilən söz vədindən uzun vaxt keçməsinə baxmayaraq fars-molla rejimindən məsələ ilə bağlı səs-soraq yoxdur. İnandırıcı deyil ki, hansısa həqiqəti əks etdirən və terror aktını fars-molla rejiminin təşkil etməsini etiraf edən məlumatları rəsmi Bakıya təqdim etsinlər. Çünki bəşəriyyət üçün təhlükə mənbəyi olan fars-molla rejiminin prinsiplərinə və terror dövlət fəaliyyətinə ziddir. Molla rejimi bütün insanlıq və bəşəri dəyərlərdən uzaq olan bir rejimdir. Belə rejimlər sivil, demokratik dünya üçün təhlükə mənbəyidir. Belə təhlükəli terrorçu dövlətin zərərsizləşdirilməsi dünyanın rahat nəfəs alması demək olar. Molla rejimi öz xalqına, xüsusilə də, güneyli soydaşlarımıza qarşı amansızlıq göstərir. 22 yaşlı Məhsa Əmininin amansızlıqla öldürülməsindən sonra başlanmış etirazların yatırılmasında ən vəhşi, qəddar üsullardan istifadə edilir. Nəticədə, 1200-ə yaxın insan öldürülüb ki, onların da yarıdan çoxu azərbaycanlılardır. 73 uşaq qətliamın qurbanı olub, 25 min insan gecələr evlərindən oğurlanaraq zindanlara atılıblar. Bu vəhşilik Xoy şəhərində baş verən zəlzələdən əziyyət çəkən azərbaycanlılara qarşı etinasız münasibətlə davam etməkdədir. Onlarla insan zəlzələnin qurbanı olub, minlərlə ailə evsiz-eşiksiz qalıb. Azərbaycan, Türkiyə və Pakistan, Xoy şəhərində zəlzələdən əziyyət çəkən insanlara humanitar yardım təklif etsələr də, əmmaməli mollalar yardımdan imtina etdilər. Bu isə onu deməyə əsas verir ki, molla rejimi Azərbaycan dövlətinin tarixi torpaqlarında yaşayan soydaşlarımıza humanitar yardımların göstərilməsindən narahatdır. Qorxur, vahimələnir ki, güneyli soydaşlarımız qardaş yardımından ruhlanar və azadlıq eşqi daha da genişlənər. Bu isə onlar üçün fəlakətlə nəticələnər.

### Çox yaxın zamanda Təbrizdə üçrəngli Azərbaycan bayrağı dalğalanacaq

Ancaq əminəm ki, gec-tez biz sərhəd-filan keçmədən Təbrizə, Tehrana, Xoya, Ərdəbilə və digər tarixi torpaqlarımıza gedəcəyik. O yerlərdə bir bayraq - üçrəngli Azərbaycan bayrağı dalğalanacaq. Tarixi gerçəkliklər unudulmayıb. Biz bir zaman güneydə müstəqil dövlət qurmuşduq. 1905-ci il Səttərxan, Şeyx Məhəmməd Xiyabani hərəkatı, 1945-ci ildə isə Pişəvəri inqilabı baş verib. Pişəvəri hərəkatı güneyli soydaşlarımızın parlaq dövlətçiliklərini qurmaqla yekunlaşdı. Bu dövlət bir il yaşadı. Təəssüf ki, ovaxtkı SSRİ rəhbərliyinin İran rejimi ilə sıx işbirliyi milli hökumətin süqutu ilə yekunlaşdı. Bir illik dövlətçilik tarixində Pişəvəri hökuməti qadınlarla kişiləri bərabər hüquqlara malik olmasına dair qanun qəbul etdi. Milli Məclis yaradıldı, Milli Ordu formalaşdı, Dövlətin bayrağı yaradıldı, demokratik seçki qanunu qəbul edildi, Azərbaycan dili rəsmi dövlət dili elan olundu. Dilimiz rəsmi dövlət dili oldu. Demokratik milli hökumət devrilsə də, ümidlər sonsuzdur ki, Güneydə müstəqil, azad dövlət yaradılacaq. Güneydə başlayan milli azadlıq hərəkatı yaxın vaxtlarda milli dövlətin yaradılması ilə nəticələnəcəyi şübhəsizdir. Ekspertlərin də gəldiyi qənaətə görə, 2025-ci ilə qədər fars-molla rejimi tarixin arxivinə göndəriləcək və yerində azad, demokratik Azərbaycan Cümhuriyyəti yardılacaq.

***İ.ƏLİYEV***

## “Vaqif Xaçaturyanın həbsi hüquqi əsaslar üzərində həyata keçirilib”

”Vaqif Xaçaturyanın həbsi tamamilə hüquqi əsaslar üzərində həyata keçirilib. Ermənistan xarici İşlər Nazirliyinin bununla bağlı bəyanatı beynəlxalq hüquq normalarına sığmır”. Bu fikirləri politoloq Elşən Manafov ”Səs” qəzetinə açıqlamasında deyib.

Onun sözlərinə görə, Xaçaturyan cinayətkardır, əli 25 vətəndaşımızın qanına bulaşıb,14 nəfəri yaralayıb, 359 soydaşımızın yurdundan didərgin düşməsində bilavasitə iştirak edib: ”Onun həbsini Azərbaycanın Qarabağdakı erməni icmasına güya ki, zorakılıq göstərmək, onlarla təhdid dilində danışmaq və onların Ermənistandan güya ki, təcrid olunmasına xidmət edən siyasətlə əlaqələndirilməsi absurddur və erməni icmasının Azərbaycan cəmiyyətinə reinteqrasiyası ilə bağlı proseslərə xidmət etmir. Xaçaturyanın həbsi ilə bağlı Azərbaycanın İnterpola belə ismarıcları olub, bu mənada onun həbsi həm dövlət qanunvericiliyinə, həm də beynəlxalq qanunvericiliyə uyğun qaydada həyata keçirilmişdir. Bu məsələ ətrafında Ermənistan xarici işlər nazirliyinin təşəbbüsü ilə başlanan şou beynəlxalq birliyə yalan və iftira ilə bağlı məlumatların ötürülməsindən başqa bir şey deyil və əlbəttə, qarşı tərəflə yekun sülh müqaviləsinin imzalanması məqsədilə gedən danışıqların məzmun və ruhuna ziddir”.

**GÜLYANƏ**

# Əli Kərimli ilə bağlı deyilənlər: reallıq və fakt

## Mərhum AXCP funksioneri onun haqqında nə söyləyib?

AXCP sədri Əli Kərimlinin fəaliyyəti və partiyadaşlarına münasibəti haqqında bu günə qədər kifayət qədər insan çoxsaylı fikirlər səsləndiriblər. Maraqlıdır ki, onların həmin fikirlərinə rəğmən, Əli Kərimli hələ də siyasi səhnədə qalmaqda davam edir, üstəlik, hakimiyyətə qarşı sərsəm iddiaları ilə gündəm saxlayır, bu cəhdlərini təxribatçı əməlləri ilə davam etdirir.Yeri gəlmişkən, bu xüsusda AXCP-nin veteran üzvlərindən olmuş, bu gün həyatda olmayan mərhum Seyid Mir Feyzullahın Əli Kərimlinin fəaliyyəti haqqında ölümündın əvvəl səsləndirdiyi son fikirlərini xatırlatmaq olar. Belə ki, o, mənsub olduğu partiyada baş verənlər, təşkilatda üzləşdiyi durum və başqa məsələlər haqqında danışarkən deyib ki, Naxçıvandan olduğu üçün hər zaman AXCP sədri Əli Kərimlidən ögey münasibət görüb. O, partiya daxilində olan haqsızlıqlardan, sədr Əli Kərimlinin partiya üzvləri arasında yerlipərəstlik və bölücülük etməsi faktlarından ətraflı fikirlər ifadə edib.



### ”Müharibənin gedişində və sonrasında ayrı-ayrı münasibətlər nümayiş etdirdi”

Sabiq cəbhəçi Kərimlinin Elçibəyin adı və imzası altında özünə xal topladığını da xatırladıb və onun sözlərinə görə, əgər Əli Kərimli bu gün Əbülfəz Elçibəyin məzarına gül qoyub özünü reklam etdirirsə, kənarda fərqli münasibət göstərir, onu ittiham edir, partiyanın uğursuzluqlarının təməlinin, məhz mərhum Elçibəyin səhvləri üzündən yaşandığını iddia edir ki, bu da illər əvvəl öz liderinin ”torbasını” söyüş və təhqirləri ilə tikən Kərimlinin aşkar simasını ortaya qoyur. Lakin onun barəsində digər fikirlərin də səslənməsi maraq doğurur. Mərhum AXCP-çi Qarabağın işğaldan azad olunması yönündə davam edən 44 günlük müharibə dövründə Əli Kərimlinin davranışlarını belə şərh edib: ”Əli Kərimli əvvəlcə ”dəstək veririk” deyə bir ifadə səsləndirdi. Müharibənin gedişində və sonrasında ayrı-ayrı münasibətlər nümayiş etdirdi. Bu gün də cəbhəçi dostlarıma faktı deyirəm, amma anlamaq istəmirlər. Niyə? Bizim partiyada belə bir ənənə var. Hakimiyyətə qarşı hamı tənqidlər, ittihamlar səsləndirir. Amma partiya daxilində olan haqsızlıqları heç kim deyə bilmir. Mən xəstə olanda Aydın Məmmədov maddi dəstək göstərdi, amma partiyadan mənə bir qəpik də köməklik göstərmədilər. Halbuki, mənə dəfələrlə digər münasib işlər təklif edirdilər, amma mən partiyanı atıb-getmədim. Bunun müqabilində Əli Kərimli, ümumiyyətlə, məni saya-hesaba almadı”.

### ”Mən indiyə qədər onun bu sözlərinin şokundan ayıla bilmirəm”

Sabiq cəbhəçi xatırladıb ki, bir dəfə ”Milli Şura”nın toplantısında çıxış edib və hər kəs onun çıxışını alqışlayıb, lakin sonradan Əli Kərimli onunla söhbətində bildirib ki, belə çıxışlar etməsin, çünki AXCP sədri digər cəbhəçilərin reputasiyalarının onunkundan üstün olmasını həzm edə bilmirdi: ”O, mənə dedi ki, sən mənim çəkdiyimdən qabağa gedirsən. Mən indiyə qədər onun bu sözlərinin şokundan ayıla bilmirəm. Dəhşətə gəlirəm ki, bir insan bu qədər qısqanclıq göstərsin. Halbuki evdə qardaşlarım mənə iddia edirdilər ki, sən Əli Kərimlini bizdən çox istəyirsən, mən də deyirdim ki, siz ev üçün çalışırsınız, o isə el üçün. Amma indi görürəm ki, qardaşlarım haqlıymış. Əgər özünü lider hesab edən kəs demokratik ənənələrə sadiqlik göstərmirsə, ona əməl etmirsə, onun ”demokratiyası” demiokratiya ola bilməz”. Mərhum cəbhəçi ölümündən az əvvəl verdiyi müsahibəsində AXCP üzvlərinə müraciət də ünvanlayıb: ”Əgər bu gün Qarabağ alınıbsa, bu ətrafda siyasət qurmaq və dəstəklər göstərmək lazımdır. Amma təxribatlar törədib suyu bulandırmaq varsa, bu, xarici kəşfiyyata işləmək deməkdir”.

***Afət Tahirqızı***

# Gözüm yoldadır, qulağım səsdə...

*Kimsəsizlər evinə göndərilən qocaların çoxunun, əslində, kimsəsi var*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb*











***Azərbaycanda ilk qocalar evi məşhur Bakı milyonçusu Hacı Hacıağa Dadaşovun təşəbbüsü və şəxsi vəsaiti hesabına yaradılıb. 1870-ci ildə Dumanın iclasında iştirakçılardan biri olan Dadaşov Bakıda qocalar evinin açılması haqqında məsələ qaldırır. Beləcə Dadaşov, Azərbaycanda ilk dəfə qocalar evi təsis edən milyonçu kimi yadda qalır. Onu bu addımı atmağa sövq edən hadisə olur. Küçədə gedərkən uşaqları tərəfindən evindən qovulan qoca bir kişi Hacıdan sığınacaq istəyir. Bu hadisədən təsirlənən Hacı Bilgəhdəki şəxsi mülkünü qocalar evinə çevirir, evsiz, kimsəsiz yaşlı insanlar orada təmənnasız qalır, bütün ehtiyacları ödənilir. Həmin qocalar evi hazırda da fəaliyyət göstərir. 2000-ci ildən isə bu qocalar evinin yerləşdiyi küçə sakinlərin istəyi ilə Hacı Hacıağa Dadaşovun adını daşıyır.***

## Dövr insanları qəddarlaşdırır

Urbanizasiyanın artması fonunda geniş ailə mədəniyyəti də tarixə qovuşur. Övladlarından qayğı, sevgi görməyən, maddi sıxıntı yaratdığını düşünən, sağlamlıq imkanları məhdud olan yaşlılar qocalar evlərinə sığınırlar. Onları buna öz övladları da məcbur edə bilir, könüllü də qərar verirlər. Ümumiyyətlə, uzbanizasiya həyatımızda çox dəyişiklik etdi. Dəyərlərimiz dəyişdi, adətlərimiz fərqli don geyindi, insanlar empatiya hissini tanımadan qəddarlaşırlar. 30-40 il əvvəl ata-anasını qocalar evinə qoymaq başqaları tərəfindən stiqma ilə qarşılanırdı, indi əksinə.

İndi bəzi insanlar valideynlərinin qayğısına qalmaq əvəzinə, onlardan qurtulmağın yollarını axtarırlar. Onlar bəzən psixoloj, bəzən fiziki zorakılıqla valideynlərini evi tərk etməyə məcbur edirlər. Bəzən də psixoloji ağır təzyiq və zorakılıqla evlərini tərk edirlər. Qocalar evlərinə atılan hər yaşlı insan, hər ata-ana qocalanadək övladına verdiyi şəfqəti, məhəbbəti övladından görmədiyi üçün bəzən könüllü evdən gedir.

Qocalar evində yaşayn qohumlu, əqrabalı, oğullu, qızlı atalar-analar əslində cəmiyyətin qanayan yarasıdır. Onların içində ailəsi, övladları, nəvələri olan yaşlı insanlar da var, kimsəsi olmayan, tək-tənha qalan insanlar da. Onları bura fərqli səbəblər gətirsə də əslində hamısının orada eyni cür həyatı var. Ümumiyyətlə, mütəxəssislər hesab edir ki, qocaların qocalar evinə uyğunlaşma müddəti, adətən, 15 gündür. Vərdişlərinə çox bağlı olan yaşlılar, ətraflarını tanımağa və ilk mərhələdə etibar edə biləcəkləri, yoldaşlıq etmək istədikləri insanları seçməyə meyillidirlər. Onların qocalar evinə uyğunlaşma prosesinin 80%-i ətraflarına güvəndiyi və sevdiyi anlarla bağlıdır.

## Onlar evdən "könüllü" gedir

Ümumiyyətlə, yaşlı nəslin problemlərindən biri, bəlkə də ən vacibi adaptasiya problemidir. Bir çoxumuzun evində nənə-baba, yaşlı ata-anamız var. Maraqlıdır ki, bizim qoca dediyimiz insanlar psixoloji cəhətdən bizdən daha dözümlüdürlər. Yəni, gənc olduğumuza, daha müasir və daha əlverişli bir zamanda yaşamağımıza baxmayaraq, bu barədə onlardan öyrənəcəyimiz çox şey var. Onlar dözümlülüyün, empatiyanın, mərhəmət və sevgi paylamağın ustasıdır.

"İkinci uşaqlıq dövrü" adlandırılan yaşlılıq həm fiziki, həm də psixoloji baxımdan insanın çətin dövrü hesab edilir. Bu dəyişmə insanın yaşadığı zaman kəsimində iki dəfə baş verir. Biri yetkinlik dövründə - bu vaxt insan təkmilliyə və inkişafa doğru gedir, ona görə bundan insan məmnunluq duyur. İkincisi, yaşlılıq dövrü - bu dövrdə insan həm inkişafa, həm də ömrün qürubuna doğru gedir və onlar bundan qorxurlar, yeniliyə adaptasiya ola bilmirlər. Bu qorxu onlarda psixoloji problemlər yaradır. Özünü gərəksiz, lazımsız və cəmiyyətdə artıq hesab etməyə başlayır, evdə lazımsız olduğunu düşünür, evdəkilərə problem yaratdığını hesab edir və "könüllü" qocalar evinə gedir. Onu bu könüllülüyə məcbur edən isə doğma ailəsidir.

## Qocalar evində həyat necə keçir?

Yaşlı insanları qocalar evində, öz otağında tək qoymaq, ünsiyyətsiz saxlamaq onları qocalar evinə yox, tənhalığa alışdırır. Ona görə onlar üçün ümumi məşğələ məkanları, mütaliə zalları, televizor salonları alternativləri yaradılır, həmyaşıdları ilə ünsiyyətlərinə maksimum şərait qurulur. Bir müddət sonra ətrafı ilə təmasda olan qocalar özlərinə yoldaş, həmsöhbət də tapırlar.

Qocalıqda atılan hər addım insan zehnini uşaqlığa bir addım da yaxınlaşdırır. Necə ki, hər uşağın sevgi və diqqətə ehtiyacı var, eləcə də yaşlı insanların öz yaxınlarından umduqları, ehtiyac duyduqları qayğı, şəfqət payı var. Təəssüf ki, gənclər bunu anlamaq istəmir, yaşlı böyüklərinə görə məsuliyyət daşımaq, qayğısına qalmaq onlara çətin gəlir. Əksəriyyəti ahıl yaşlarında olan valideynlərini ildə bir dəfə görməyə getmir, uşaqlar nənə-baba qayğısı görmədən böyüyür, valideynlər nəvə sevgisindən məhrum edilirlər. Valideyn övlada bir ömür baxır, dünyaya gətirir, böyüdür, təhsil verir, evləndirir, həyat qurur, bütün problemlərini həll edir, amma övlad valideyninin qayğıya möhtac olduğu illərdə ona dəstək olmur.

Hər gün bir az da müasirləşməyə çalışan cəmiyyətimiz indi yeni-yeni adətlər "icad edir". Əvvəllər ata-ana evin tacı hesab edilərdi, indi gənclər evlənən kimi ata-anadan, evdən uzaqlaşmağa, ya da valideyni uzaqlaşdırmağa çalışırlar. Damın altında tək, kimsəsiz qalan valideynlərə ayda-ildə bir dəfə baş çəkirlər və bununla da vəzifələrinin bitdiyini hesab edirlər. Bəzi hallarda isə evdən gedən valideyn olur, ömrünü onu göndərdikləri qocalar evində başa vurur. Oğullu-qızlı valideynlər qocalar evindəki həyatına alışmağa çalışır - gözü yolda, qulağı səsdə, ailəsinin ziyarətini gözləyə-gözləyə...

***Lalə Mehralı***

# Elektron siqaretlər dəb aksesuarı, yoxsa təhlükə?

*QURUM RƏSMİSİ DANIŞDI*



"Azad İstehlakçılar Birliyi olaraq hər dörd ildən bir dünyanın müxtəlif yerlərində toplaşırıq və istehlakçı hüquqlarına dair qlobal məsələləri müzakirə edirik. Elektron siqaretlər istehlakçı hüquqlarını qoruyan təşkilatların nəzərində tütündən az zərərli olmayan bir məhsuldur. Bu, nə elektron mal, nə də tütündür". Bu sözləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib.

Onun sözlərinə görə, əgər elektron əşya olsa, onu elektron məhsullara nəzarət edən dövlət orqanları yoxlayar: "Tütün də deyil ki, onun aksiz markası olsun. Ona görə də elektron siqaretlər qanunvericilikdəki boşluqlardan istifadə edərək bütün dünyaya yayılır. Azərbaycanda isə bu elektron siqaretlər təxminən 20 ildir ki, istifadə olunmaqdadır. Elektron siqaretlər birmənalı şəkildə insan orqanizminə tütün qədər zərərlidir. Təəssüf ki, bunun qarşısını almaq üçün ciddi təşəbbüslər çox azdır".

Sədr sözlərinə davam edərək bildirib ki, elektron siqaretlərlə yanaşı guya siqareti tərgitmək üçün istifadə olunan başqa cihaz da var: "Bunların hər biri birbaşa ağciyəri sıradan çıxaran amillərdir. İstifadə zamanı yüksək temperatura əmələ gəlir. Yüksək temperaturda isə istənilən kimyəvi maddələr fəallaşır və insanın ağciyərini məhv edir. Bu cihazların hansı ciddi xəstəliklər əmələ gətirdiyi hələ kifayət qədər tədqiq olunmayıb. Tütün və tütün məmulatları haqqında qanunda nə varsa, hər biri elektron siqaretlərə və siqareti tərgitmək üçün istifadə olunan başqa cihazlara, o cümlədən, qəlyanlara tətbiq olunmalıdır".

***Ləman Sərraf***

# Yemişlə balı eyni vaxtda yeməyin təhlükəsi

Yay fəslinin ən sevimli meyvələrindən olan yemişin çoxlu faydaları var. Mütəxəssislərin dediyinə görə, isti yay günlərində yemiş sərinlik və rahatlıq bəxş edir. Yemiş göz xəstəliklərinin qarşısını alır, hamiləliyi asanlaşdırır, immun sistemini gücləndirir, ağciyər xəstəliklərinə səbəb olan zərərli hüceyrələrin sovrulmasını sürətləndirir. Ürək-damar sistemi problemlərinə müsbət təsir edir. El arasında deyirlər ki, yemişi balla eyni vaxtda yemək olmaz.

Həkim-terapevt Nahid Məhərrəmov bu barədə daha geniş fikirlərini çatdırıb: "Yemiş mədədə çətin həzm olan qida hesab edilir. Onu balla birlikdə yeyəndə mədə-bağırsaq sistemi daha ağır yüklü qida qəbul etmiş olur, şəkər mübadiləsinin pozulmasına gətirib çıxarır, bir çox hallarda qəbizliyə səbəb olur. Qəbizlik yarananda əgər kimdəsə narahatlıq - məsələn, B12 vitamini, fol turşusu narahatlığı varsa, halsızlıq, ürəkbulanma və s. ola bilər. Qəbizlik çox davam edərsə, daha ciddi nəticələrə aparıb çıxara bilər. Yaxşı olardı ki, qida ən azı dörd saat fərqi ilə qəbul olunsun, çünki həmin müddətdə mədədə həzm prosesi getmiş olur".

Yemişi səhər yeməyində qəbul etmək tövsiyə olunur. Mütəxəssislər bildirirlər ki, idmanla məşğul olanlar, artıq çəkidən əziyyət çəkənlər gündə 150 qramdan artıq yemiş yeməməlidir.

# Bəzi dövlət orqanları elektron sənəd dövriyyəsi sistemləri yaradacaq

Elektron sənəd dövriyyəsi sistemləri mövcud olmayan dövlət orqanları (qurumları) elektron sənəd dövriyyəsi sistemləri yaradacaq. Bu, Prezident İlham Əliyevin "Dövlət orqanları (qurumları) arasında sənəd mübadiləsinin elektronlaşdırılması haqqında" fərmanında əksini tapıb.



Fərmana əsasən, elektron sənəd dövriyyəsi sistemləri mövcud olmayan dövlət orqanları (qurumları) altı ay müddətində elektron sənəd dövriyyəsi sistemlərinin yaradılması ilə bağlı tədbirlər görməlidir.

Mərkəzi icra hakimiyyəti orqanları 2023-cü il noyabrın 1-dək, yerli icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər 2024-cü il avqustun 1-dək mövcud elektron sənəd dövriyyəsi sistemlərini altsistemə inteqrasiya etməklə digər dövlət orqanları (qurumları) ilə sənəd mübadiləsinin həmin altsistem üzərindən aparılmasını təmin etməlidir.


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Bu futbolçu üçün 140 milyon dollar təklif edirlər!




"Əl Hilal" hücumçu Viktor Osimhen üçün "Napoli"yə həftəlik 1 milyon funt-sterlinq maaşla 140 milyon avro təklif edib. SİA "Sky Sports"a istinadən xəbər verir ki, Səudiyyənin Pro Liqa klubu "Paris Sen-Jermeni"nin futbolçusu Kilian Mbappe üçün də 300 milyon avro təklif etmişdi. "Əl Hilal" həmçinin "İnter Mayami"yə keçməzdən əvvəl Lionel Messi ilə də müqavilə imzalamağa çalışdı.

"Napoli"nin liqa çempionluğunu qazandığı üçün keçən mövsüm A Seriyasının qol vurma cədvəlini birinci yerdə tamamlayan oyunçu Viktor Osimheni satmağı düşünmək üçün 150 milyon avrodan çox istəyəcəyi düşünülür. 24 yaşlı Osimhen bu yay "Mançester Yunayted"in transfer hədəfi idi. Keçən ay "Napoli"nin prezidenti Aurelio De Laurentisə Osimhen üçün yeni müqavilənin gedişi ilə bağlı sual verilmişdi. O isə cavabında dedi: "İki il uzadılması ilə bağlı əsas razılaşmamız var, lakin biz imtina edə bilməyəcəyimiz təklifi nəzərdən keçirməyə hazırıq".

***Aysel Naibli***

# Astarada oğul atasını öldürdü

Avqustun 1-də saat 10 radələrində Astara rayonu Çürkəş kəndində evlərin birində 1952-ci il təvəllüdlü Əliyev Qubad Cümşüd oğlunun kəsilmiş-deşilmiş xəsarətlərdən ölməsi barədə polisə məlumat daxil olub. Bu barədə AZƏRTAC-a Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Lənkəran regional qrupundan məlumat verilib. Bildirilib ki, cinayət əməlini törətməkdə şübhəli bilinən onun oğlu, 1977-ci il təvəllüdlü Rəşad hadisə yerindən uzaqlaşıb. Onun tutulması istiqamətində polis əməkdaşları tərəfindən tədbirlər görülür.



## ELAN

**DGK tərəfindən Əsgərov Asif Süleyman oğlunun adına verilmiş 3393 nömrəli möhür itdiyi üçün etibarsız sayılır.**


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**